QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 176 (6376) 29 sentyabr 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Macarıstanlı politoloq: "Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasında çıxışı geniş əhatəli idi"



Regional təhlükəsizlik məsələləri üzrə ekspert, macarıstanlı politoloq Attila Hargitai AZƏRTAC-ın müxbiri ilə söhbətində BMT Baş Assambleyasının 76-cı sessiyasının...

Bax 9

## Ruslar Ağdərədə erməni mövqelərini partladır - Sülhməramlılarla ermənilər arasında gərginliyin səbəbi



# "Ermənistan maraqlı olmalıdır ki, ilk növbədə, Türkiyə ilə, Azərbaycanla münasibətləri normallaşdırsın"

*Prezident İlham Əliyevin Türkiyənin Anadolu Agentliyinə müsahibəsi*



Bax 2

## Gəncə şəhərində "Ümumrespublika Xəmsə Festivalı"nın IX regional turu baş tutub




Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilatçılığı ilə Gəncə Şəhər Heydər Əliyev Mərkəzində "Ümumrespublika Xəmsə Festivalı"nın IX mərhələsi keçirilib. Əvvəlcə layihə iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər. Daha sonra...

Bax 9

## Memorial.az saytı və "Yaddaş kitabı"nın təqdimatı keçirilib



Bax 5



## Beynəlxalq şirkətlər Azərbaycan iqtisadiyyatını dayanıqlı hesab edir

Son illər ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və əlverişli investisiya qoyuluşunun...

Bax 8

## Almaniyanın "Ştern" nəşri: Üçtərəfli Bəyanat ermənilər üçün milli həqarətə çevrildi

Bax 7




Almaniyanın "Ştern" nəşrində Azərbaycan xalqının işğal altında olan ərazilərinin azad edilməsi uğrunda Vətən müharibəsinin başlanmasının birinci ildönümü barədə məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, "Ermənistanda və Azərbaycanda Qarabağ münaqişəsinin qurbanları yad edilir" sərlövhəli...

## Bütün bunların günahkarı təkcə Nikoldurmu?



Bax 15

## Arnold Stepanyan: "Revanşizmlə çox uzağa getmək olmayacaq"



Bax 13

## "Bavariya" bu futbolçuya "elçi" düşüb...



Bax 16

# "Ermənistan maraqlı olmalıdır ki, ilk növbədə, Türkiyə ilə, Azərbaycanla münasibətləri normallaşdırsın"

## *Prezident İlham Əliyevin Türkiyənin Anadolu Agentliyinə müsahibəsi*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Anadolu Agentliyinə müsahibə verib. Müsahibə sentyabrın 27-də agentliyin saytında yayımlanıb. AZƏRTAC müsahibənin tam mətnini təqdim edir.**



***- Hörmətli Prezident, Anadolu Agentliyinə müsahibə vermək barədə təklifimizi qəbul etdiyiniz üçün Sizə çox təşəkkür edirik. Önəmli bir tarixdəyik - Azərbaycan Zəfərinin, 30 ilə yaxın işğal altında olan torpaqların azad edilməsinə başlandığı 27 sentyabr tarixinin birinci ildönümündəyik. O günə qayıtsaq, o günün şərtlərini zehnimizdə yeniləsək, Azərbaycan nə üçün əks-hücuma keçdi?***

-Bilirsiniz, son müddət ərzində Ermənistanın bizə qarşı təxribatları müntəzəm xarakter almışdı. Həm bizə qarşı yönəlmiş açıqlamalar, eyni zamanda, addımlar onu göstərirdi ki, Ermənistan yeni müharibəyə hazırlaşır. Mən bunun səbəblərini bu günə qədər də anlaya bilmirəm. Çünki 30 il ərzində digər dövlətin torpaqlarını işğal altında saxlayan bir dövlət yeni savaşa çıxmaq fikrində olursa, bu, çox ciddi araşdırılmalıdır ki, bunun səbəbi nədir. Sözümün təsdiqi olan addımlar da göz qabağındadır. Çünki iyul ayında Ermənistan Azərbaycan-Ermənistan sərhədində hərbi təxribat törətmişdir və bu təxribat nəticəsində 13 mülki şəxs və hərbçi həlak olmuşdur. Azərbaycan o zaman düşmənə layiqli cavab verdi. Ancaq biz dövlət sərhədini keçmədik. Yəni, sadəcə olaraq, onları girdikləri Azərbaycan ərazisindən çıxardıq və bir neçə gün davam edən toqquşma sona çatdı. Ondan sonra avqust ayında bir təxribat qrupu göndərildi, təmas xəttini keçdilər və orada bizim hərbçilərimiz onları tərk-silah etdilər. Bir il bundan əvvəl Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının sessiyasında çıxış edərkən mən demişdim ki, Ermənistan yeni savaşa hazırlaşır. Üç gün sonra artıq yenidən bizim mövqelərimiz və yaşayış məntəqələrimiz artilleriya atəşinə tutulmuşdu, yenə də şəhidlər verdik və mənim əmrimlə genişmiqyaslı əks-hücum əməliyyatına başladıq və bildiyiniz kimi, bu əməliyyat böyük Zəfərlə nəticələndi.

Bir il əvvələ qayıdarkən, əlbəttə, bütün bu prosesləri, bütün bu hadisələri daha da dəqiq təhlil etmək imkanımız olur və görünür ki, Ermənistan rəhbərliyi, hakimiyyətə yeni gəlmiş rəhbərlik hansısa hərbi uğurla da öyünmək istəyirdi, hansısa hərbi uğur əldə etmək istəyirdi. Ancaq hesablamaları çox səhv apardılar, çox böyük xəta törətdilər və bunun nəticəsində acı məğlubiyyətə uğradılar.

***- Cənab Prezident, bu savaşın qarşısını almaq olmazdımı? Çox uzun müddət fəaliyyət göstərən Minsk qrupu həmsədrlərinin görüşləri vardı. Minsk qrupunun həmsədrləri və ya başqa amillər bu savaşın qarşısını ala bilərdilərmi? Əslində, qarşısını necə almalı idilər?***

> **İlham Əliyev:**
> "Biz Qarabağda yaşayan erməniləri Azərbaycan vətəndaşları hesab edirik, sadəcə olaraq, onlar bunu qəbul etməlidirlər"

- Təbii, qarşısını ala bilərdilər. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişdim. Əgər Minsk qrupu Ermənistana vaxtında ciddi təzyiq göstərsəydi, təbii ki, Ermənistan məcbur olub işğal edilmiş torpaqlardan çıxacaqdı və belə olan halda müharibəyə ehtiyac qalmazdı. Ancaq onlar bu təzyiqi etmədilər. Baxmayaraq ki, Minsk qrupuna həmsədrlik edən üç dövlət Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvüdür. Yəni, onlar dünya miqyasında ən güclü ölkələr sayılır. Məgər, onların siyasi çəkisi, siyasi imkanları olmayıb ki, Ermənistana bu ciddi mesajları göndərsinlər? Sadəcə olaraq, nə hərb, nə sülh siyasətinə üstünlük verirdilər.

Digər tərəfdən, mən Minsk qrupunun həmsədrlərinə və digər böyük dövlətlərə dəfələrlə müraciət etdim ki, Ermənistana sanksiyalar tətbiq edilməlidir. Bu da savaşın qarşısını ala bilərdi. Çünki bu sanksiyalar Ermənistan üçün böyük çətinliklər yaşadacaqdı və onlar məcbur olub bizim torpağımızdan çıxacaqdılar. Yəni, biz bütün imkanlardan istifadə etdik ki, bunu sülh yolu ilə çözək, müharibə olmasın, qan tökülməsin. Ancaq bununla bərabər, mən deyirdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Nəyin bahasına olursa-olsun öz torpağımızı azad edəcəyik və sadəcə olaraq, şans verirdik.

Bilirsiniz, Ermənistanın 2018-ci ildə hakimiyyətə gəlmiş yeni rəhbərliyi bu danışıqlar, yəni, müzakirə prosesinə də çox böyük zərbə vurdu. Çünki onların yersiz və çox məsuliyyətsiz açıqlamaları faktiki olaraq müzakirə prosesini iflic etdi, yəni, danışıqlar iflic vəziyyətinə düşmüşdü. Belə olan halda, Minsk qrupu daha müsbət, daha da cəsarətli addımlar atmalı idi. Onlar isə sadəcə olaraq, müşahidə edirdilər, sadəcə olaraq, buna müşahidəçi kimi yanaşırdılar. Ona görə, İkinci Qarabağ müharibəsinin başlanmasında, əlbəttə ki, ən böyük məsuliyyət Ermənistanın üzərinə düşür, eyni zamanda, Ermənistanı vaxtında dayandırmayan böyük dövlətlərin üzərinə düşür.

***- Həmsədrlərin ölkələri uzun müddət status-kvonu davam etdirmək strategiyasını yürütdü. Ancaq Zəfərdən sonra Minsk qrupunun, həmsədrlərin yenidən prosesə daxil olması, vasitəçilik diplomatiyası yürütməsi gündəmdədir, belə tələblər var. Bununla əlaqədar nə düşünürsünüz? Bu, gələcəkdə bir həll yolu ola bilərmi, bunun bir faydası olacaqmı?***

-Bilirsiniz, Minsk qrupuna sədrlik edən ölkələr, onların prezidentləri işğal dövründə bir neçə dəfə çox müsbət açıqlamalar verdilər, təqribən 7-8 il bundan öncə. Onlardan biri də o idi və açıq bəyan edilmişdi ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Biz də bunu çox müsbət qəbul etdik. Şəxsən mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişdim və demişdim ki, bu, uzun illər ərzində gözlənilən bir açıqlamadır. Status-kvonun dəyişdirilməsi nə deməkdir - işğala son qoyulması. Ancaq bu açıqlamalardan sonra onlar praktiki addımlara keçmədilər. Ondan da əlavə, bir müddət sonra onlar bu ifadədən də geri çəkildilər və həmsədrlər tərəfindən yeni bir ifadə ortalığa atıldı - status-kvo dayanıqlı deyil. Yəni, bunların arasında çox böyük fərq var. Biri var ki, qəbuledilməzdir, bir də var ki, dayanıqlı deyil. Mən o zaman da onları tənqid etmişdim və demişdim ki, bu mövqe dəyişikliyi Ermənistanın işğalçılıq siyasətinin dəyirmanına su tökür. Ancaq təəssüf ki, ondan sonrakı dövr də onu göstərdi ki, Minsk qrupu, sadəcə olaraq, bu məsələni həll etmək fikrində deyildi. Biz 44 günlük müharibə zamanı bunu bir daha gördük. Çünki Birləşmiş Millətlər Təşkilatında bizə qarşı məsələni qaldıran Minsk qrupuna həmsədrlik edən bəzi ölkələr idi. Müharibə gedir, biz öz torpağımızda beynəlxalq hüququ bərpa edirik, ədalət savaşına çıxmışıq. Ancaq Birləşmiş Millətlər Təşkilatında bizə qarşı hansısa sanksiya məsələsini ortaya atmaq tamamilə ədalətsizlikdir.

> **İlham Əliyev:**
> "Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan-Türkiyə münasibətlərini müttəfiqlik səviyyəsinə qaldırdı"

İndiki dövrə gəldikdə, Minsk qrupunun fəaliyyətini biz demək olar ki, görmürük. Adətən onlar danışıqlar prosesi dövründə gəlirdilər, təkliflər verirdilər, prezidentlər səviyyəsində keçirilən görüşlərin gündəliyini təsbit edirdilər, bizə təkliflər edirdilər ki, hansı məsələlər müzakirə oluna bilər. Hər iki tərəf də razılaşma əsasında bu məsələləri müzakirə edirdi. İndi isə müharibənin bitməsindən bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, onlardan hər hansı bir təklif yoxdur. Bir dəfə Azərbaycana gəlmişdilər və mən onlara dedim ki, siz təklif verin. Biz bu məsələni həll etdik, Dağlıq Qarabağ münaqişəsi başa çatdı, "Dağlıq Qarabağ" adlı inzibati ərazi, yəni, qurum mövcud deyil. Bu günlərdə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının sessiyasında çıxışımda da mən bütün ölkələrə müraciət etdim və dedim, rica edirəm ki, bundan sonra "Dağlıq Qarabağ" ifadəsi işlədilməsin, Azərbaycan ərazisində belə bir qurum yoxdur. Qarabağ zonası var, Şərqi Zəngəzur var. Belə olan halda Minsk qrupunun fəaliyyəti üçün bu gün yeni məsələlər ortalığa çıxmalıdır. Yəni, məsələ - Dağlıq Qarabağ münaqişəsi bitdi. Nə ola bilər? Mənim fikrimcə, yəni, etimad tədbirləri, ondan sonra yolların açılması, dəhlizlərin açılması, sülh prosesinə dəstək vermək, Ermənistan-Azərbaycan əlaqələrini tənzimləmək, çalışmaq ki, Ermənistan-Azərbaycan arasında bizim təklif etdiyimiz sülh müqaviləsi imzalansın. Yəni, məncə, onların fəaliyyət dairəsi bu gündən sonra bundan ibarət olmalıdır. Yoxsa "Dağlıq Qarabağ" - olmayan qurumun statusu ola bilərmi? Əlbəttə ki, yox. Mən demişəm, bir daha demək istəyirəm ki, əgər kimsə "Dağlıq Qarabağ"a status vermək istəyirsə, öz ölkəsində bir ərazi versin, orada bir qurum yaratsın, ya cümhuriyyət yaratsın, onların müstəqilliyini tanısın, biz də tanıyaq. Amma Azərbaycan ərazisində yox!

***- Cənab Prezident, sözlərinizdən anladığıma görə Minsk qrupu da hazırkı - 44 günlük müharibədən sonrakı reallığı, bölgədə yaranan reallığı qəbul etməlidir və bununla bağlı addımlar atmalıdır, yeni təkliflər verməlidir. Bunlarımı ifadə edirsiniz?***

- Əslində, bilirsiniz, bir daha demək istəyirəm, İkinci Qarabağ müharibəsindən sonra Minsk qrupundan bu günə qədər bizə hər hansı bir təklif verilmədi. Təklif olmadığı təqdirdə Minsk qrupunun fəaliyyəti haqqında danışmaq yersizdir. Yəni, bir il artıq keçir. Nə təklif edirsən? Deyirsən ki, bu münaqişə həll edilməlidir. Mən Azərbaycan olaraq deyirəm ki, bunu həll etmişəm, təkbaşına, bütün təzyiqlərə rəğmən.

*Ardı Səh. 3*

# "Ermənistan maraqlı olmalıdır ki, ilk növbədə, Türkiyə ilə, Azərbaycanla münasibətləri normallaşdırsın"

## *Prezident İlham Əliyevin Türkiyənin Anadolu Agentliyinə müsahibəsi*

Əvvəli Səh. 2

Ona görə bu təklif olmalıdır. Nə ilə məşğul olmalıdır? Mən öz fikirlərimi ifadə etdim. Qalan şeylər isə onların məsuliyyətidir.

***- Yeni yaranan bu reallıqdan sonra Azərbaycan, Ermənistan, Rusiya arasında bir protokol imzalandı. Orada bəzi maddələr var, xatırladığıma görə 9 maddə idi. Siz bu maddələrin həyata keçirilməsindən məmnunsunuzmu? Ötən bir il ərzində kifayət qədər həyata keçirildimi? Həmin maddələrdən nələr əskikdir?***

- Bütövlükdə məmnunam. Çünki orada olan əsas məsələlər öz həllini tapdı. Bildiyiniz kimi, Ermənistan bu Bəyanata imza atmaqla öz üzərinə öhdəliklər götürmüşdür və bu öhdəlikləri məcbur olub yerinə yetirdi. Bu öhdəliklərin yerinə yetirilməsi müharibədən dərhal sonra baş vermişdir. Yəni, o zaman işğal altında olan bölgələrdən erməni qüvvələrinin çıxarılması orada açıq-aydın göstərilirdi və müharibə bitəndən sonra 20 gün ərzində Ağdam, Kəlbəcər və Laçın rayonları bizə qaytarıldı. O zaman Ermənistan bu məsələyə çox məsuliyyətli yanaşırdı. Nə üçün? Çünki qorxu içində idi. Çünki bilirdi ki, əgər 10 noyabr tarixində bu Bəyanata imza atmasaydı, onların durumu daha pis ola bilərdi. Yəni, bizi dayandıracaq bir qüvvə yox idi və savaş dönəmində dəfələrlə mən Azərbaycan xalqına müraciət edərək deyirdim ki, Ermənistan bizə tarix versin, təqvim versin nə zaman bizim torpaqlarımızdan çıxır, biz dərhal müharibəni dayandırmağa hazırıq.

Bu tarix bizə noyabrın 9-da verildi, Ermənistan faktiki olaraq kapitulyasiya, yəni, təslim aktını imzaladı və noyabrın 10-da müharibə dayandı. Ona görə o önəmli məsələlərin həlli Ermənistanın qorxu içində olmasından qaynaqlanır. Amma ondan sonra nə oldu? Sülhməramlı qüvvələr gəldi, bir müddət keçdi və qalan məsələlərin icra edilməsi dayandı. Orada açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri bizim torpağımızdan tam çıxarılmalıdır. Müharibə başa çatandan təxminən 15-20 gün sonra Ermənistandan sülhməramlı qüvvələrin məsuliyyətində olan ərazidən - Laçın dəhlizindən azad edilmiş torpaqlara 62 nəfərdən ibarət bir təxribat qrupu göndərildi. Bu, 10 noyabr Bəyanatına tam ziddir. Azərbaycan Ordusu onları zərərsizləşdirdi və onlar həbs olundular. İndi onlara hərbi əsir deyirlər. Amma gedin baxın beynəlxalq konvensiyalara, hərbi əsir kim ola bilər. Bunlar hərbi əsir deyil. Müharibə bitdi, noyabrın 10-da Bəyanat imzalandı. Ondan sonra göndərilən hər hansı bir hərbçi təxribat qrupunun üzvü kimi təsbit edilməlidir. Yəni, bu məsələ öz həllini tapmadı. Bu, çox önəmli məsələdir və biz israr edirik ki, bu, öz həllini tapsın, tam həllini tapsın. Ola bilər ki, qismən həllini tapıbdır.

Digər məsələ dəhlizlərin açılmasıdır. Noyabrın 9-dan 10-na keçən gecə imzalanmış Bəyanatda göstərilir ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantı olmalıdır. Bu, bağlantı təmin edildimi? Xeyr. Amma bu bağlantını təmin etmək üçün o qədər də böyük zamana ehtiyac yoxdur. Orada quru yollarla məsafə cəmi 40 kilometrdir. Biz müharibədən sonra keçən bir il ərzində min kilometrdən çox yol çəkdik - həm torpaq yol, həm asfalt yol. İndi orada 40 kilometr yolun açılması böyük problem deyil. Ancaq buna baxmayaraq, - hətta Ermənistan buna razılıq da verib, - aparılan müzakirələr nəticəsiz qalıb. Yəni, Ermənistan 10 noyabr Bəyanatını, onun şərtlərini kobudcasına pozur. Biz hələlik səbirli, təmkinli davranırıq. Amma bizim səbrimizin də həddi var və İkinci Qarabağ savaşı göstərdi ki, səbrimiz tükənəndə nələr baş verir. Ona görə Ermənistan rəhbərliyinə şans veririk ki, noyabrın 10-da imzalanmış Bəyanatın bütün müddəalarını yerinə yetirsin və özünü məsuliyyətlə aparsın.

***- Bu xüsusda bunu soruşmaq istəyirəm, cənab Prezident. Bu təxribat qruplarının rahat hərəkət etməsi və Laçın dəhlizinə nəzarət olunması. Həmin bölgələrdə xidmət aparan rus müvəqqəti hərbçiləri var, əsgərləri var. Beş il ərzində orada xidmət etməli olan rus silahlı qüvvələri var. Bu məsələdəki şikayətlərinizi Moskvaya bildirdikdə necə bir cavab alırsınız? Sizə verilən cavabların bölgədə təsiri olurmu, yəni oradakı birliklərin davranışları dəyişirmi?***

> **İlham Əliyev:**
> "Bizim sərhədimizin yaxınlığında keçirilən hərbi təlimlər çox təəccüb doğuran məsələdir"

-Əlbəttə, biz bütün bu hallarla bağlı Rusiyaya öz haqlı iradlarımızı bildiririk. Ancaq təxribat qrupunun oraya daxil olması o vaxt olub ki, Rusiya sülhməramlı qüvvələri hələ tam yerləşməmişdi. Çünki noyabrın 10-da müharibə başa çatdı, ondan sonra bir müddət lazım idi ki, Rusiya sülhməramlı qüvvələr - iki minə yaxın əsgər oraya yerləşsin və orada boşluqlar çox idi. Yəni, burada biz ədalətli olmalıyıq. Onlar o yeri tam mühafizə edə bilməmişdilər və ermənilər də bundan istifadə edib bizim azad edilmiş ərazilərə daxil oldular. Ancaq ümumilikdə, Rusiya sülhməramlı qüvvələrinin fəaliyyəti müsbət qiymətləndirilə bilər. Əlbəttə ki, bizim narazılığımız da var, iradlarımız da var - ilk növbədə, xarici vətəndaşların ərazimizə qanunsuz olaraq gəlməsi ilə bağlı. Biz dəfələrlə bu məsələni qaldırmışıq. Çünki Qarabağ bizim ərazimizdir və bizim icazəmiz olmadan o bölgələrə heç bir xarici vətəndaş, yaxud da ki, avtomobil daxil ola bilməz, bizdən icazə alınmalıdır. Ancaq deyə bilərəm ki, bu, hələ tam yüz faiz həll olunmayıb. Halbuki onu da deməliyəm ki, xarici vətəndaşların Qarabağa qanunsuz gəlməsi halları çox az saydadır. Onu da bildirməliyəm ki, bizim siyasətimiz və təkidimiz nəticəsində artıq bu prosesə də son qoyulur. Ancaq biz, əlbəttə, istərdik ki, suverenliyimizə, ərazi bütövlüyümüzə tam miqyasda, tam həcmdə saygı göstərilsin. Zatən, Rusiyanın rəsmi nümayəndələri, yüksəkvəzifəli nümayəndələr deyirlər ki, Qarabağ Azərbaycan torpağıdır və belə olan halda, yerlərdə, orada xidmət göstərən hərbçilər də bu bəyanatlara uyğun şəkildə öz fəaliyyətini aparmalıdırlar.

***- Ötən günlərdə Ermənistan müdafiə naziri ilə Rusiya müdafiə nazirinin görüşü olmuşdu. O görüşdən sonra Ermənistanın silahlandırılması prosesi yenidən başladı deyə bir açıqlama verildi. Yəni, bu, bölgəyə nə gətirə bilər? Bu açıqlama barədə Siz nə düşünürsünüz? Əslində, yox olan bir Ermənistan ordusu var idi, 44 gündə Azərbaycan Ordusu onu darmadağın etdi. İndi yenidən rus silahları ilə ayağa qalxmağa çalışacaq. Bu məsələ barədə fikirlərinizi bilmək istərdim, cənab Prezident.***

-Bu məsələdən xəbər tutanda biz dərhal Rusiya tərəfinə sorğu göndərdik və maraqlandıq ki, əcəba bu, nə məsələdir. Biz eyni fikirləri də bölüşürük. Ancaq bizə məlumat gəldi ki, Ermənistan mediasında çıxan bu açıqlama həqiqəti əks etdirmir. Yəni, Rusiya müdafiə naziri belə sözlər deməmişdir. Bu, Ermənistan təbliğatının növbəti çirkin əməlidir, belə söz deyilməmişdir. Bizə rəsmi qaydada bildirildi ki, belə planlar yoxdur. Ermənistan ordusunun yenə də pulsuz silahlandırılması ilə bağlı Rusiya tərəfindən yetərincə dəqiq cavab aldıq və biz bu məsələni artıq gündəlikdən çıxartdıq. Bu, onu göstərir ki, Ermənistan öz çirkin əməllərindən əl çəkmir. Bax ortalığa atılan bu yalan, birincisi, çox böyük yanlışlıqdır. Çünki əgər sən Rusiya müdafiə nazirinin demədiyi sözləri yayırsansa, bu, ən azı məsuliyyətsizlikdir və bu, təxribatdır. İkincisi, - bunu biz işğal dövründə və işğaldan sonra dəfələrlə görmüşük, - Ermənistan və Rusiyada fəaliyyət göstərən erməni lobbisi hər gün, müntəzəm olaraq çalışır ki, Rusiya-Azərbaycan münasibətlərində bir çat yaransın. Onların gündəlik peşəsi Azərbaycanı ləkələmək, Rusiya mediasında Azərbaycan haqqında mənfi imic yaratmaq, Rusiya-Azərbaycan münasibətlərinə kölgə salmaqdır. Hesab edirlər ki, belə olan halda, revanşist qüvvələr nə vaxtsa yenə də baş qaldırıb bizə qarşı yeni savaşa çıxa bilərlər. Amma onlar yanılırlar. Birincisi, Rusiya-Azərbaycan münasibətləri kifayət qədər yüksəksəviyyəli münasibətlərdir. Biz bütün məsələləri açıq şəkildə müzakirə edirik - prezidentlər səviyyəsində, müdafiə və xarici işlər nazirləri səviyyəsində. Hansısa tərəfi narahat edən istənilən məsələ ilə bağlı biz dərhal təmasda oluruq və məsələləri həll edirik. Deyə bilərəm ki, bu gün Rusiya-Azərbaycan münasibətlərində hansısa təcili məsələni həll etməklə bağlı bir mövzu da yoxdur. Çünki bu münasibətlər kifayət qədər müsbətdir. Ermənistanın bu təbliğat cəhdləri onlara uğur gətirməyəcək. Ermənistanın yenidən silahlanması ilə bağlı bizim narahatlığımız Rusiya tərəfindən anlayışla qəbul olunur.

> **Azərbaycan Prezidenti:**
> "Ermənistanın yenidən silahlanması ilə bağlı bizim narahatlığımız Rusiya tərəfindən anlayışla qəbul olunur"

***- Zaman-zaman Ermənistan silahlı qüvvələri və siyasətçilər tərəfindən müxtəlif fikirlər, bəyanatlar səsləndirilir. Müdafiə Nazirliyi belə açıqlamalar verərkən, baş nazir Paşinyan Türkiyə ilə görüşmək istədiyinə dair ifadələr səsləndirir. Belə cümlələri var. Ötən həftələrdə bunu bir neçə dəfə təkrarladı. Paşinyanın bu sözlərini Siz necə dəyərləndirirsiniz? Üstəlik, bu düşüncə Türkiyə və Azərbaycan üçün yetərlidirmi? Yəni, Ermənistanın görüşlərə başlaya bilməsi üçün etməli olduğu, yerinə yetirməli olduğu öhdəlikləri varmı?***

-Bilirsiniz, müharibədən öncə və müharibə zamanı Ermənistan rəhbərləri tərəfindən o qədər təzadlı, o qədər yanlış və yalan bəyanatlar olmuşdur ki, onların sayı-hesabı yoxdur. İndi belə misalları saatlarla gətirmək olar. Biz şəhərləri, kəndləri azad edərkən onlar bildirirdilər ki, guya bizim şəhərlərimizi yenidən işğal edirlər. Artıq Azərbaycanın azad edilmiş şəhərlərində bayraqlar qaldırılarkən onlar bunu inkar edirdilər. Yəni, "ağa qara, qaraya ağ demək" onların xislətidir. Ona görə onlar hər hansı bir açıqlama verəndə, sözün düzü, biz bunu ciddiyə almırıq. Bunu analiz etmək, dəqiqləşdirmək lazımdır. Çünki bu açıqlamalar bir yalanın, gerçəkləşməyən arzuların, xülyaların və təxribatların sintezidir. Bugünkü Ermənistan, bax, budur. Biz deyəndə ki, bu, uğursuz dövlətdir, - yəni, bunun beynəlxalq adı da var - "Failed state", - bunu nəzərdə tuturuq. Hər bir dövlətin dövlətçilik rəmzlərindən biri də məsuliyyətli davranışdır. Biz isə bunu görmürük.

O ki qaldı, Ermənistan-Türkiyə münasibətlərinin normallaşmasına, əlbəttə, biz istəyirik ki, bütün bölgədə sülh olsun. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın təklif etdiyi 3+3 platforması hesab edirəm ki, bunun ən gözəl yolu ola bilər. Ancaq Ermənistan hələ ki, buna razılıq verməyib. İndi bu, Türkiyə Prezidenti tərəfindən səslənir, Ermənistana şans verilir. Azərbaycan bunu dəstəklədi, Rusiya dəstəklədi, İran dəstəklədi, ancaq Ermənistan bunun əleyhinə çıxır. Bunun əleyhinə çıxan Ermənistan indi bəyan edir ki, Türkiyə ilə münasibətləri normallaşdırmaq istəyir. Əgər normallaşdırmaq istəyirsənsə, sən, ilk növbədə, bu təklifə müsbət cavab ver. Əks təqdirdə, burada yenə təzad yaranır, yəni, anlaşılmazlıq yaranır. Əgər nə vaxtsa Ermənistan tərəfindən səslənən rəsmi açıqlamalar gerçək siyasətlə uzlaşsa, o zaman, əlbəttə ki, təhlil etmək daha asan olacaq. Bir də siz də yaxşı bilirsiniz ki, Ermənistan konstitusiyasında Türkiyəyə qarşı torpaq iddiası var, ondan əl çəkməlidir. Öz konstitusiyasını yenidən işləyib qəbul etməlidir. Ermənistan kimi gücsüz və bu gün tamamilə darmadağın edilmiş ölkə Türkiyə kimi nəhəng ölkəyə qarşı necə torpaq iddiasında ola bilər? Bu, psixi xəstəliyə bənzəyən bir şeydir. Ona görə Türkiyəyə və Azərbaycana qarşı iddialardan əl çəkməlidirlər. Azərbaycanla olan münasibətləri normallaşdırmalıdırlar və mən əminəm ki, Türkiyə tərəfi hər zaman bölgədə sülhün və genişmiqyaslı əməkdaşlığın tərəfdarı olub. Bu gün də belədir və Türkiyədən çox müsbət siqnallar gəlir.

Amma Ermənistanda bunu gərək çox düzgün dəyərləndirsinlər. Təəssüf ki, İkinci Qarabağ müharibəsindən əvvəlki iki il ərzində Azərbaycan tərəfindən verilən müsbət siqnallar orada yanlış anlaşıldı - bir zəiflik kimi, bir gücsüzlük kimi. Biz, sadəcə olaraq, qan tökmək istəmirdik. Biz gücümüzü bilirdik və bilirdik ki, biz bu məsələni güc yolu ilə həll edə bilərik. Ermənistan isə buna inanmırdı. İndi də hələ gec deyil.

Ardı Səh. 4

# "Ermənistan maraqlı olmalıdır ki, ilk növbədə, Türkiyə ilə, Azərbaycanla münasibətləri normallaşdırsın"

## *Prezident İlham Əliyevin Türkiyənin Anadolu Agentliyinə müsahibəsi*

Əvvəli Səh. 3

Yeni yaranmış reallığı düzgün dərk etsin, bu reallığa görə addımlar atsın, xəritəyə baxıb öz yerini orada tapsın, əgər tapa bilərsə, bir nöqtədir xəritədə və buna uyğun addımlar atsın. Belə olan halda, əlbəttə ki, bölgədə genişmiqyaslı əməkdaşlıq mümkündür.

***- Burada insanın ağlına belə bir şey gəlir. Yəni, bölgəsindəki ölkələrin tələblərinə, əlaqələrinə önəm verməyən bir Ermənistanın arxasında necə bir güc ola bilər? Ya da nəyi planlaşdırırlar ki, belə qərarları həyata keçirməyə çalışırlar, cənab Prezident?***

- Bunu mən deyə bilmərəm. Bunu yəqin ki, bu məsələ ilə məşğul olan politoloqlar, təhlilçilər deyə bilər. Amma öz təcrübəmə əsaslanaraq deyə bilərəm ki, onların bir çox addımları irrasional addımlardır, yəni, reallıqdan uzaq, hansısa mifologiyaya, xülyalara və gerçəkləşməmiş arzulara əsaslanmış bir yanaşmadır. Onu da siyasi aləmdə düzgün təhlil etmək çox çətindir. Bu, yəqin ki, tibb aləmində təhlil olunarsa, daha düzgün olar.

***- Aydındır. Bir az əvvəl regional əməkdaşlıqdan bəhs etdiniz. Prezident Ərdoğanla Sizin davamlı ifadə etdiyiniz altılı əməkdaşlıq platformasının yaradılmasından bəhs etdiniz. Bu platformada İranın da adı keçir. Ancaq ötən günlərdə İrandan gələn yük avtomobillərinin Xankəndiyə getməsinə dair görüntülər ortaya çıxdı. Siz də bu mövzuda etirazınızı bildirdiniz. Bundan dərhal sonra İran sərhədində İran əsgərlərinin təlim görüntüləri paylaşıldı. Bu məsələ ilə bağlı bir dəyərləndirmənizi öyrənmək istərdim. Bu, ani bir şey idi, yoxsa planlı, müəyyən bir mesaj verən hərəkətlər idi?***

- Bilirsiniz, İran tırlarının qanunsuz olaraq Qarabağ bölgəsinə getməsi birinci dəfə baş vermir. Bu, işğal dövründə də dəfələrlə olan hadisələrdir. Bu tırlar müntəzəm olaraq oraya gedirdi. Bizim məlumatımız var idi. Ancaq dəqiq məlumat, yəni, indiki qədər dəqiq məlumat, əlbəttə ki, yox idi. Bunu nəzərə alaraq, biz müxtəlif kanallarla İran tərəfinə narazılığımızı ifadə edirdik. Ancaq bu proses davam edirdi.

Müharibə başa çatandan sonra artıq Laçın dəhlizi gözümüzün önündədir və bizim hərbi mövqelərimizdən Xankəndiyə gedən yola məsafə bəlkə də 5-6 metrdir. Biz Laçın dəhlizi boyunca və o cümlədən Şuşa ətrafında və digər yerlərdə kifayət qədər texniki imkanlara malikik. Kameralar var, peykdən istifadə edirik, dronlardan istifadə edirik. Biz yenə gördük ki, bu tırlar müharibədən sonra da oraya getməyə davam edir. Belə olan halda, mən bizim Prezident Administrasiyasının əməkdaşlarına göstəriş verdim ki, İranın Azərbaycandakı səfiri ilə danışsınlar. Biz bunu rəsmiyyətə salmaq istəmirik, dostcasına danışsınlar və söyləsinlər ki, buna son qoyulmalıdır. Bu, bizə qarşı hörmətsizlikdir. Azərbaycanın ərazi bütövlüyünə qarşı hörmətsizlikdir, buna son qoyulmalıdır. Bu söhbət səhv etmirəmsə, iyul ayında olmuşdur. Ondan sonra təbii ki, biz bunu izləməyə başladıq və hər ayın başında bizdə məlumat yığılır ki, nə qədər tır girdi, neçə tır çıxdı, nə gətirdi, nə apardı. Onların nömrələrinə qədər bizim bütün bilgilərimiz var və onlar mətbuatda dərc olunub. Amma nə etdilər ondan sonra? İran tırlarının üzərinə erməni nömrələrini yapışdırmağa çalışdılar. Belə bir saxtakarlığa yol verdilər və bizi aldatmağa çalışdılar. Olduqca səriştəsiz bir addım atıldı - o tırın üstündə fars dilində yazılan sistern, altda da erməni nömrələri. Onu da sizə bildirməliyəm ki, eyni nömrələri bir neçə avtomobilin üstünə də yapışdırdılar. Yəni, o qədər səliqəsiz görülən bu iş nəyi göstərir? Onu göstərir ki, bu işi davam etdirmək, sadəcə olaraq, bunu pərdələmək istədilər. Təbii ki, belə olan halda, bir ay keçəndən sonra biz artıq rəsmi qaydada diplomatik nota verdik. İranın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə dəvət edildi, ona iradlar bildirildi və xahiş olundu ki, buna son qoyulsun. Bu, avqust ayının ortalarında olan məsələdir. Biz ümid edirdik ki, buna son qoyulacaq. Ancaq buna baxmayaraq, avqustun 11-dən sentyabrın 11-nə qədər yenə də İrandan gələn 60-a yaxın tır qanunsuz olaraq Qarabağ bölgəsinə hərəkət etdi. Bunun qabağını almaq üçün biz artıq praktiki addımlara keçdik. Yəni, bizim davranışımız, addımlarımız məsuliyyətlidir, dostluq əlaqələrinə əsaslanandır. Birinci dəfə şifahi xəbərdarlıq, ikinci dəfə rəsmi nota, üçüncü dəfə postlar - gömrük, sərhəd, polis. Beləliklə, biz Azərbaycan ərazisindən keçən yola artıq nəzarət etməyə başladıq və ondan sonra Qarabağa gedən tırların sayı sıfra endi. İndi baxın, buna gətirib çıxarmaq lazım idimi? İndi orada - rus sülhməramlı qüvvələrinin nəzarətində olan Qarabağ bölgəsinə cəmi 25 min adam yaşayır. Yəni, bu bazar o qədər önəmlidir? O ticarət o qədər önəmlidir ki, dost, qardaş saydığın ölkəyə qarşı belə nümayişkaranə hörmətsizlik edirsən? Əlbəttə, biz beynəlxalq konvensiyalarda, beynəlxalq hüquqda təsbit edilmiş bütün imkanlardan istifadə etdik. Bəziləri deyir ki, indi İran tırlarından rüsum götürülür. Biz xarici ölkəyə gedəndə rüsum ödəyirik? Ödəyirik. Onlar Azərbaycan ərazisindən istifadə edirlər, rüsum ödəməlidirlər?

**İlham Əliyev:**

"Minsk qrupu, sadəcə olaraq, bu məsələni həll etmək fikrində deyildi"

***- Ödəməlidirlər.***

- Ödəməlidirlər. Bu, məsələnin bir tərəfi. O ki qaldı, bizim sərhədimizin yaxınlığında keçirilən hərbi təlimlərə, bu, çox təəccüb doğuran bir məsələdir. Çünki 30 illik müstəqillik dönəmində belə hadisələr olmamışdır. İlk növbədə, deməliyəm ki, hər bir ölkə öz ərazisində istənilən hərbi təlimi keçirə bilər. Bu, onun suveren hüququdur, söz ola bilməz. Ancaq, eyni zamanda, bunu bir zaman kəsiyində analiz edərkən görürük ki, bu, heç vaxt olmamışdır.

Nə üçün məhz indi? Nə üçün məhz bizim sərhədimizdə? Bu sualları mən yox, Azərbaycan ictimaiyyəti verir. Bu sualları dünya azərbaycanlıları verir. Bir sual da verilir ki, nə üçün işğal dövründə o bölgədə təlim keçirilmirdi? Ermənilərin Cəbrayılda, Zəngilanda, Füzulidə oturduğu dövrdə nə üçün təlim keçirilmirdi? Nə üçün bu, biz torpaqları azad edəndən sonra, 30 illik əsarətə, işğala son qoyandan sonra keçirilir? Bu suallar legitim suallardır.

Əlbəttə, biz istəyirik ki, bölgədə uzunmüddətli əməkdaşlığa zərbə vuran heç bir hal olmasın. Bir daha demək istəyirəm ki, Azərbaycan burada da özünü çox məsuliyyətlə aparır, təmkinlə aparır. Ümid edirik, bizim legitim addımlarımıza emosional reaksiya, yəqin ki, müvəqqəti xarakter daşıyır.

***- Çox önəmli sualları gündəmə gətirdiniz. Bizim də buna İran tərəfindən cavabların verilməsini gözləməkdən başqa çarəmiz qalmayacaq. Nəqliyyat problemlərindən danışarkən, bu məsələni bir az əvvəlki suala bağlamaq istəyirəm. Məsələn, Zəngəzur dəhlizi Ermənistanın normallaşma əlaqələrinə başlaması üçün bir şərtdirmi?***

- Əlbəttə, bir şərtdir. Çünki o, noyabrın 10-da imzalanmış Bəyanatda təsbit edilir və Ermənistan öz üzərinə bu öhdəliyi götürüb. Birincisi, əgər o, bu öhdəliyi icra etməyəcəksə, onda hansı normallaşmadan söhbət gedir? İkincisi, Ermənistanda, - yenə də qayıdıram əvvəlki fikirlərimə, - postmüharibə dövrünü çox düzgün təhlil etməlidirlər. Artıq vəziyyət tam fərqlidir. İndiki durum güc nisbətini açıq-aydın göstərir. İşğal dövründə də bilirdik ki, bizim imkanımız nədir, Ermənistan ordusunun imkanı nədir. Biz bilirdik ki, balansı öz xeyrimizə çoxdan dəyişdirmişik. İndi bunu bütün dünya görür. Ona görə indiki şəraitdə mən hesab edirəm ki, Ermənistan Azərbaycanla münasibətləri normallaşdırmaq üçün daha çox səy göstərməlidir. Çünki onlar üçün bu, önəmlidir. Biz bunsuz da yaşaya bilərik, necə ki, yaşamışıq, indi də yaşayırıq. İndi daha yaxşı yaşayacağıq. Çünki o böyük əraziyə yenə də sahib olduq, öz doğma torpağımıza qayıtdıq. Onların durumu daha da pisləşdi. Ona görə daim münaqişədə olmaq, qonşularla əsassız, saxta tarix əsasında gələcək əlaqələri planlaşdırmaq çox yanlış bir addımdır. Ermənistan maraqlı olmalıdır ki, ilk növbədə, Türkiyə ilə əlaqələri normallaşdırsın, eyni zamanda, Azərbaycanla münasibətləri normallaşdırsın. Türkiyə və Azərbaycanla öz sərhədlərini müəyyən etsin, delimitasiya, demarkasiya aparılsın. Onlar buna çox maraqlıdır, nəinki biz. Çünki bu olmasa, deməli, sərhəd yoxdur. Bilirsiniz indi Ermənistanda və bəzi xarici siyasətçilər bizi ittiham edirlər ki, biz Ermənistanı işğal etmişik. Birincisi, bu, yalandır. İkincisi, bəs Ermənistan bizim əraziləri işğal edəndə niyə səsinizi qaldırmırdınız? Niyə gözünüzü yumurdunuz? Otuzillik işğal dövründə bizim bütün tarixi, dini abidələrimiz yerlə bir edildi. Bütün binalar söküldü. Bunu görmürdünüz? Minsk qrupunun həmsədrləri dəfələrlə orada olublar, Ağdamda da olublar, Kəlbəcərdə də olublar, Füzulidə də, Cəbrayılda da, görmürdülərmi?

Otuzillik işğal dövründə, cəmi iki dəfə faktaraşdırıcı missiya göndərildi və məruzə hazırlandı. Ermənilərin bütün cinayətləri məruzədə göstərildi. Sonuncu belə bir missiya təqribən 10 il əvvəl həyata keçirilmişdi. Biz dəfələrlə Minsk qrupuna, onun həmsədrlərinə müraciət etdik ki, yenə də missiya göndərin. Çünki orada qanunsuz məskunlaşma gedir, Suriyadan, Livandan, başqa yerlərdən ermənilər gətirilir, məskunlaşdırılır. Bu, hərbi cinayətdir. Bütün beynəlxalq konvensiyalara görə bu, hərbi cinayət sayılır. Etmədilər onu. Ona görə bu işğalı 30 il ərzində görməyən, indi olmayan işğalı görən, əlbəttə ki, ya kordur, ya nankordur, ya da, sadəcə olaraq, riyakardır. Bu, daha düzgün ifadə ola bilər.

Biz isə öz dədə-baba torpağımıza qayıtmışıq. Biz 30 il orada olmamışıq. Əgər Ermənistan tərəfi deyirsə ki, sərhəd oradan keçir, nə üçün orada heç kim yox idi? Sərhəddirsə, gəl sərhədi qoru. Biz gəldik, o dağlara yerləşdik. Bizim xəritələrə görə biz öz ərazimizdə yerləşmişik. Əgər Ermənistan tərəfi fərqli fikirdədirsə, gəlsin, otursun, bizimlə bərabər bunu müzakirə edək, bir il çəkər, beş il çəkər, otuz il çəkər, kim bilir. Yenə də qayıdıram bu söhbətə. Sərhədlər məsələsində bu gün Ermənistan reallığı dərk etməlidir. O, tezliklə bizim şərtlərimizə əməl edib, onları qəbul edib, bu məsələni həll etməlidir ki, artıq hər kəs bilsin, onun sərhədi harada yerləşir.

***- Problemlər də ortadan qalxsın. Kiçik toqquşmalar da olmasın.***

- Təbii. Əlbəttə.

***- Bəs, bu problemlərin bir daha müzakirə edilməsi, qərarın qəbul olunması üçün Sizin, cənab Putinin, Paşinyanın yaxın zamanda görüşməsi gündəmdədirmi?***

- Biz üçtərəfli görüşü bir dəfə keçirdik. Bu ilin əvvəlində, yanvar ayında Moskvada üçtərəfli görüş keçirildi. O görüşdə daha çox postmüharibə dövrü ilə bağlı məsələlər müzakirə olundu. Çünki müharibədən cəmi 2 ay keçmişdi. Ondan sonra prezidentlər səviyyəsində üçtərəfli görüş olmamışdır. Ancaq bir işçi qrup yaradıldı, Baş nazir müavinləri səviyyəsində. O qrup da, ilk növbədə, Zəngəzur dəhlizinin açılması ilə bağlı işlər görürdü. Ancaq iyunun əvvəlindən Ermənistan bu qrupda öz iştirakını bitmiş hesab etdi. Dedi, bu, seçkilərlə əlaqədardır. Seçkilər orada iyun ayında keçirildi. Ondan sonra avqustun ortasında ilk dəfə yenə də bu qrup yığışdı və yəqin ki, gələn ay yenə də yığışacaq.

Hesab edirəm ki, bu, önəmli formatdır. Çünki hələ ki, nəticə olmasa da, hər halda bir təmas var. İndiki şəraitdə təmas lazım olan vasitədir ki, bu müzakirələr əsnasında bir çox məsələlər həll oluna bilər. Biz Azərbaycanda indi Zəngəzur dəhlizinin yaradılması ilə bağlı genişmiqyaslı işlərə başlamışıq. Zəngilana həm dəmir yolu çəkilir, həm də avtomobil yolu. İndi hava limanları tikilir. Ona görə hesab edirəm ki, biz öz ərazimizdə bütün işləri iki il ərzində görəcəyik. Çünki burada işin həcmi çox böyükdür. Ermənistan ərazisində dəmir yolunun və avtomobil yolunun uzunluğu 40 kilometrdir. Bu, bir ilə, il yarıma çəkilə bilər. Yəni, biz bunu gözləyirik.

***- Layihələrdən bəhs etdiniz. Bir il ərzində, əslində, bir il başa çatmadan işğaldan azad edilən ərazilərdə çox böyük layihələr həyata keçirdiniz. Məsələn, Füzuli hava limanı bir il olmadan artıq təyyarələrin enib-qalxdığı bir layihə halına gəldi. Avtomobil yolları da həmçinin. Siz avtomobil yollarının Ermənistan sərhədinə qədər təməlini qoydunuz, o iş davam edir. Bu sahədə çox böyük layihələr reallaşdırırsınız. Həm bu layihələr, həm də o bölgədə yaşayan erməni vətəndaşlar var, onların, necə deyərlər, gələcəyi ilə bağlı nə deyə bilərsiniz? Onlar bu layihələrdən necə faydalanacaqlar? Onlarla bağlı fikirlərinizi almaq istəyirəm, cənab Prezident.***

- Siz tam haqlısınız. Biz müharibə bitər-bitməz vaxt itirmədən dərhal hərəkətə keçdik və bu, dövlətimizin gücünü göstərdi.

Ardı Səh. 5

# "Ermənistan maraqlı olmalıdır ki, ilk növbədə, Türkiyə ilə, Azərbaycanla münasibətləri normallaşdırsın"

## *Prezident İlham Əliyevin Türkiyənin Anadolu Agentliyinə müsahibəsi*

Əvvəli Səh. 4

Çünki bu işləri görmək üçün təkcə pul kifayət etməz. Çünki resurs olmalıdır, kadrlar olmalıdır, heyətlər olmalıdır, texniki imkanlar olmalıdır, səriştə olmalıdır. Biz bütün gücləri səfərbər etdik. Bu və digər məsələləri, məsələn, elektriklə bağlı olan məsələləri bu ilin sonuna qədər bitirəcəyik. Yəni, bütün bölgə elektriklə tam təmin ediləcək. Bildiyiniz kimi, yolların inşası da davam edir və sair.

Təbii, biz bunu, ilk növbədə, öz vətəndaşlarımız üçün edirik ki, bu bölgəni yenidən quraq və keçmiş məcburi köçkünlər tezliklə oraya qayıda bilsinlər. Artıq birinci belə pilot kənd layihəsi yəqin ki, bu ilin sonuna, ya gələn ilin əvvəlinə Zəngilan rayonunda hazır olacaqdır. Eyni zamanda, Ermənistan əhalisi də, Qarabağda yaşayan ermənilər də bunu görürlər. Çünki bizim televiziyalara baxırlar, bizim radioya qulaq asırlar və görürlər ki, burada nə kimi işlər görülür. Təsadüfi deyil ki, erməni xalqının nümayəndələri artıq bir neçə dəfə bizim Şuşadakı hərbi mövqelərimizə yaxınlaşıb rica etmişdilər ki, onları da bu işlərə cəlb edək. Çünki onlar orada işsiz-gücsüz qalıblar, işsizlik, səfalət və ümidsiz bir vəziyyətdədirlər. Biz buna müsbət baxırıq, ancaq gərək bunun hüquqi tərəfi tam yerinə otursun. Çünki mən demişəm, bir daha demək istəyirəm ki, biz orada yaşayan erməniləri öz vətəndaşlarımız sayırıq. Onlar Azərbaycan torpağında yaşayırlar, Qarabağ hər zaman Azərbaycan olub - istər sovet dönəmində, istər ondan əvvəlki dönəmdə, işğal dönəmində də Azərbaycan olub. Onları biz Azərbaycan vətəndaşları hesab edirik, sadəcə olaraq, onlar bunu qəbul etməlidirlər, onlar öz yaxalarını erməni təbliğatından qurtarmalıdırlar, onlar öz gələcəyini, öz uşaqlarının gələcəyini təmin etməlidirlər. Biz hazır olarıq ki, onları işlərə cəlb edək. Niyə də etməyək?

Biz strateji nöqteyi-nəzərdən gələcəyə barış prizmasından yanaşırıq. Çünki mən istəyirəm ki, bir daha müharibə olmasın. Hər halda biz müharibə başlamayacağıq, əgər Ermənistan tərəfdə revanşist meyillər baş qaldırmasa. Əgər görsək ki, Ermənistanda bizə qarşı hər hansı bir təhdid yaranır, biz o təhdidi məhv etməliyik. Bu, bizim legitim hüququmuzdur. Ancaq bu təhdid olmasa, bizim başqa fikrimiz yoxdur. Qarabağda 25 min erməni yaşayır, onlar da bu işlərdə iştirak edə bilərlər - həm inşaat işlərində, həm də bərpa işlərində. Eyni zamanda, gələcəkdə biz onların yaşadıqları yerlərdə, kəndlərdə onlar üçün şərait yaradarıq. İndi baxın, bizim Qarabağ və Şərqi Zəngəzurla bağlı planlarımız göz önündədir. Ağdam şəhərinin baş planı təsdiq edildi. Yaxın gələcəkdə Cəbrayıl və Füzuli şəhərlərinin, bütövlükdə rayonların baş planları təsdiq ediləcək. Bu, bizim gücümüzü göstərir və biz ermənilərin indi Qarabağda yaşadıqları kəndlərdə də bunu edə bilərik.

Mən Zəfərdən sonra bölgələrə onlarla səfər etdim və orada bəzi kəndlərdə, ermənilərin yaşadıqları kəndlərdə gördüyüm mənzərə məni dəhşətə gətirdi. Yəni, insana yaraşmayan bir vəziyyət. Bəzi kəndlərin evləri indi analiz edilir, evlərin 95 faizi yararsızdır, yəni, orada heç kimsə yaşaya bilməz, onlar sökülməlidir. Yəni, 30 il belə rəzil durumda yaşayan bir toplum təbii ki, işıq üzü görmək istəyir və işıq yalnız Azərbaycandan gələcək. Anlamaq lazımdır ki, onlar üçün də bu, o qədər də asan məsələ deyil. Burada psixoloji durum da nəzərə alınmalıdır. Ancaq biz hər halda xoş niyyət göstəririk və ümid edirəm, onlar anlayacaq ki, xoşbəxt gələcəkləri, rifahla dolu gələcək ancaq Azərbaycan dövləti ilə bağlıdır.

***- Cənab Prezident, Türkiyə ilə Azərbaycan əlaqələrinə toxunmaq istəyirəm. Prezident Ərdoğan BMT-də Azərbaycanın haqlı mübarizəsini başa çatdırdığını ifadə etdi, hər platformada buna bənzər açıqlamalar verir. Prezident Ərdoğanın olmadığı yerlərdə Siz Türkiyənin haqlarını müdafiə edirsiniz. Yəni, əslində, tarixdə görünməyən bir dövr yaşayırıq. Soruşmaq istəyirəm ki, Türkiyə ilə Azərbaycanın münasibətlərinin gələcəyi ilə bağlı nə düşünürsünüz?***

- Deyə bilərəm ki, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan əvvəlki illərdə də yüksək platformalardan Azərbaycanın haqq işi haqqında çox geniş məlumatlar verirdi. Hər zaman bu məsələ onun xarici siyasət kursunda bir nömrəli məsələ olub. Bu dəfə artıq savaşdan, Zəfərdən sonra orada bu sözləri deməsi, əlbəttə, bizi çox sevindirir və bir daha onu göstərir ki, Rəcəb Tayyib Ərdoğan hər zaman Azərbaycanın yanındadır. Necə ki, savaşın ilk saatlarında o bildirmişdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bizə əlavə güc verdi və mənəvi güc verdi.

Savaşa qədər də, - siz burada uzun illər yaşayan bir insan kimi bilirsiniz, - Türkiyə Azərbaycan üçün nə qədər doğma, nə qədər əziz ölkədir və Azərbaycan da Türkiyə üçün. Bu son illər ərzində biz çox böyük yol keçdik və demək olar ki, münasibətlərimizi ən yüksək zirvəyə qədər qaldırdıq. Mən, - yəqin siz də bunu xatırlayırsınız, - nə qədər demişdim ki, dünya miqyasında buna oxşar əməkdaşlıq, dostluq, qardaşlıq yoxdur. Onu da demişdim, bir çox ölkələr var ki, onların da tarixi birdir, etnik kökləri birdir, dili birdir. Ancaq onların arasında, görün, nə qədər ixtilaf var, nə qədər inamsızlıq var, nə qədər problem var.

Yəni, etnik, dini, mədəni köklər hələ o demək deyil ki, bu ölkələr qardaş ölkələrdir. Belə hallar çoxdur, həm Yaxın Şərqdə, eyni zamanda, postsovet məkanında. Ona görə mən hesab edirəm ki, belə çox güclü bir tarixi, mədəni zəmin üzərində bu cür gözəl münasibətlər sarayını tikmək bizim xüsusi xidmətimizdir. Həm hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın, həm də mənim. Burada mən təvazökarlıqdan uzaq olmalıyam və bu, həqiqətdir. İkinci Qarabağ savaşı bunu bir daha göstərdi. Yəni, Türkiyə bizim yanımızda olmaqla, bütün dünyaya mesaj göndərdi ki, qarışmayın, müdaxilə etməyin. Azərbaycan haqq yolundadır və əgər qarışsanız, əgər müdaxilə etsəniz, qarşınızda Türkiyəni görəcəksiniz. Bu, əlbəttə, çox böyük bir üstünlük idi.

İkinci Qarabağ savaşından sonra bizim münasibətlərimiz daha da yüksək pilləyə qalxdı. Bilmirəm, siz bilirsiniz, yoxsa yox, Türkiyədə bunu bir çoxları bilir ki, mən savaş bitəndən sonra hörmətli Prezidenti Şuşaya dəvət etdim. O vaxt demişdim ki, O, Şuşaya gəlməyənə qədər oraya heç bir başqa ölkədən heç kim gəlməyəcək. Hətta Türkiyədən gələnlər olmuşdu, oraya getmək istəyənlər olmuşdu. Mən onlara dedim ki, sağ olun, amma gözləyin, Qardaşım gəlsin getsin, ondan sonra yolunuz açıqdır. Şuşa Bəyannaməsinin imzalanması bizim münasibətlərimizi daha da yüksək səviyyəyə qaldırdı. Faktiki olaraq biz Şuşa Bəyannaməsinin imzalanması ilə de-fakto olan münasibətlərimizi de-yure səviyyəsinə qaldırdıq, yəni, müttəfiqlik səviyyəsinə. Onsuz da bu, hər sahədə müttəfiqlik əlaqələri idi. Ancaq biz bunu artıq rəsmiləşdirdik və bu, gələcək fəaliyyət üçün bir yol istiqamətidir. Biz bu yolla gedəcəyik. Gündən-günə möhkəmlənən münasibətlər, artan birgə layihələr və bizim həmrəyliyimiz, qardaşlığımız hesab edirəm ki, bu gün bütün qonşu ölkələr üçün bir örnəkdir.

Əgər bütün qonşular Türkiyə ilə Azərbaycan kimi münasibətlər qursaydılar, o zaman dünyada heç bir savaş, heç bir müharibə olmazdı.

***- Hörmətli cənab Prezident, çox mühüm məsələlərlə bağlı önəmli açıqlamalar verdiniz. Çox təşəkkür edirik. Son bir sual, çox qısa dəyərləndirmənizi almaq istərdim. İşğaldan azad edilən bölgələrə tez-tez gedirsiniz, görüntülər paylaşılır, biz xəbərləri alırıq. Görüntüləri çəkən və paylaşan da Sizinlə birlikdə bölgədə olan hörmətli Mehriban xanım Əliyevadır. Biz görüntüləri onun vasitəsilə, onun paylaşımları ilə alırıq. Həm Azərbaycanda, həm də Türkiyədə Sizin oradakı dialoqlarınız, hərəkətləriniz çox böyük rəğbətlə qarşılanır. Bununla bağlı nə deyə bilərsiniz?***

- Bu, bilirsiniz, elə öz-özünə yarandı, təbii yarandı. Biz bunu planlaşdırmırdıq. Biz, sadəcə olaraq, ilk dəfə Şuşaya gedəndə Bakıdan səhər çıxmışdıq, çünki o zaman yol çox uzaq idi. Biz Füzulidən Şuşaya Zəfər yolu ilə təqribən 3 saata getmişdik, özü də yollar qarlı idi, buz bağlamışdı. Ona görə səhər erkən çıxmışdıq, hələ qaranlıq idi və hava işıqlandıqca çox gözəl mənzərə yarandı. Mehriban xanım onu öz telefonu ilə çəkməyə başladı və məni də çəkdi. Mən də dedim ki, yolumuz Şuşayadır və bundan başladı. Ondan əvvəl təbii ki, Ağdam və digər rayonlar da var idi. Bu, xüsusi bir təşəbbüsdür. Çünki adətən mənim səfərlərimi rəsmi heyət işıqlandırır. Adətən orada çox rəsmi görüşlər, çıxışlar, mərasimlər və sair olur. Bu isə yeni bir yanaşma idi və bilirəm ki, bir çoxlarının xoşuna gəldi. Bizim də xoşumuza gəldi. Bilirsiniz, bu sözləri deyərkən, ilk növbədə, mənim gözlərimin önünə o bölgələrdə yaşamış insanlar gəlirdi. Mən, ilk növbədə, onlar üçün bunu deyirdim. Çünki onlar 30 il həsrət içində idilər və mən gəlmişəm oraya, mən bu evi görürəm, bu binanı görürəm, onlar görmürlər. Onlar bizim gözlərimizlə onu görməlidirlər. Hər zaman mənim gözlərimin önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər, amma sınmadılar, möhkəm durdular. Budur Azərbaycan! Budur Azərbaycan xalqı! Mən sizi də duyğulandırdım.

***- Təşəkkür edirəm, cənab Prezident.***

- Sağ olun.

***- Allah o günləri bir daha heç kimə yaşatmasın.***

- Amin, sağ olun.
- Təşəkkür edirəm.

# Memorial.az saytı və "Yaddaş kitabı"nın təqdimatı keçirilib

**Dünən Bakıda Vətən müharibəsinin ildönümünə həsr edilən Memorial.az saytının və "Yaddaş kitabı"nın təqdimat mərasimi keçirilib. SİA xəbər verir ki, tədbirdə Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, deputat Zahid Oruc, Memorial.az saytının baş redaktoru Vüsal Məmmədov, Müdafiə Nazirliyinin nümayəndələri, tanınmış media nümayənləri, şəhid ailələrinin üzvləri və s rəsmi şəxslər iştirak ediblər.**







S.Yusifova qeyd edib ki, şəhidlər mövzusu Azərbaycan xalqı üçün həmişə həssas və müqəddəsdir. O deyib ki, Vətən müharibəsi gedişində və müharibədən sonra müxtəlif informasiya resurslarında, media orqanlarında şəhidlər haqqında müxtəlif məlumatlar paylaşılır: "Bu məlumatlar cəmiyyətdə böyük maraqla qarşılansa da, informasiyanın yayılması pərakəndə və sistemsiz xarakter daşıyır. Memorial.az saytının yaradılmasında da əsas məqsədlərdən biri bu pərakəndəliyi aradan qaldıraraq, tarixi yaddaşın formalaşdırılmasına sistemli yanaşmanı tətbiq etmək, hər bir qəhrəmanımız haqqında müfəssəl məlumatları vahid elektron resursda cəmləşdirmək, onları Azərbaycan xalqına daha yaxşı tanıtmaqdır".

Saytın baş redaktoru Vüsal Məmmədov saytla bağlı tədbir iştirakçılarına geniş məlumat verib. O bildirib ki, şəhidlərlə bağlı məlumatlarda pərakəndəlik var idi: "Onlarla bağlı məlumatlar daha da dəqiqləşdiriləcək və sistemləşdiriləcək".

Tədbirdə çıxış edən Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, deputat Zahid Oruc isə vurğulayıb ki, Vətən müharibəsinin bir ili qarşısında Memorial.az-yaddaş kitabının yaradılması şəhidlərimizin müqəddəs əməllərini tarixiləşdirmək və gələcək nəsillərə ötürmək baxımından mühüm hadisədir: "2907 şəhidin və itkin düşən 7 nəfərin sırasında polkovnikdən mükəlləfiyyətli əsgərə qədər xalqımızın seçilmiş övladlarıdır.Adları, təvəllüdləri, ulduzları fərqlidir, lakin hamısı bir bayrağın ulduzuna çevrilib Vətən üçün eyni mərtəbəyə yüksəliblər.Dünən Bakının baş meydanında prezident İlham Əliyev və hörmətli Mehriban xanımın başı üzərində qaldırdığı şəhidlər göyün üstündə olduqlarını sübut etdilər".

Tədbir daha sonra çıxışlarla davam edib.

***Kəmalə Təyyarqızı***

# “Ermənistan Azərbaycana qarşı istənilən ərazi iddiasını geri götürməli və özünü yaxşı aparmalıdır”

## Prezident İlham Əliyev “France-24” televiziya kanalına müsahibə verib

**Sentyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın “France-24” televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

*- Salam, “France-24” kanalında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə eksklüziv müsahibəyə xoş gəlmisiniz. O, bizə Bakıdan qoşulur. Cənab Prezident, “France-24” kanalında bizim qonağımız olduğunuz üçün çox sağ olun.*

- Fransız auditoriyası ilə danışmaq üçün mənə bu fürsəti verdiyinizə görə təşəkkür edirəm.

***- Ölkənizin 44 gün ərzində qalib gəldiyi Azərbaycan və Ermənistan arasında olan müharibənin başlanmasından düz bir il ötür. Keçən həftə BMT-də müharibə bitəndən bəri ilk dəfə hər iki ölkənin - Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri görüşdü. Bu, hər iki tərəf arasında dialoqun yenidən başlaması və sülhə ümidin olacağı deməkdirmi?***

- Ümid etmək istərdim ki, bu, belədir. Çünki Azərbaycan artıq neçə dəfə açıq şəkildə Ermənistanla dialoqa başlamağa hazır olduğunu bildirib. Söhbət təkcə dialoqun başlanılmasından getmir, eyni zamanda, Azərbaycan və Ermənistan arasında gələcək sülh razılaşmasının üzərində aparılacaq işdən də gedir. Müharibə bitib, münaqişə öz həllini tapıb. Biz regionu daha da proqnozlaşdırıla bilən, sabit və təhlükəsiz regiona çevirmək üçün yeni fəaliyyətə başlamalıyıq. Hər iki ölkənin xarici işlər nazirlərinin görüşü bu səylərin yaxşı göstəricisidir. Ümid edirəm ki, bu, təkcə bir görüş yox, yeni bir prosesin başlanğıcı, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesinin və Cənubi Qafqaz regionunda geniş əməkdaşlığa yeni bir miqyas verəcək proses olacaq.

***- Düzdür, dialoqa yenidən başlamağa cəhd etmək və sülhə doğru irəliləmək üçün Ermənistan rəhbərliyi - Ermənistanın baş naziri ilə əlaqə yaratmısınızmı?***

- Keçən ilin noyabr ayında müharibə bitəndən bəri bizim bir-birimizi görmək üçün yalnız bir imkanımız olub. Bu, yanvar ayında Rusiya Prezidenti Vladimir Putin tərəfindən Moskvada təşkil olunan üçtərəfli görüş zamanı olub. Görüşün məqsədi müharibədən sonra hadisələrin gedişatını planlaşdırmaq idi. Bizim bir-birimizi görmək üçün başqa imkanımız olmayıb. Yəqin ki, bu pandemiya ilə və ya başqa səbəblərlə əlaqədar olub. Lakin Azərbaycan heç vaxt, hətta müharibə zamanı, hətta işğal zamanı belə istənilən yüksək səviyyəli təmaslara etirazını bildirməyib. Əksinə, hesab edirik ki, bu təmaslar hər iki tərəfdə ola bilən sualları cavablandıra bilər və regionun inkişafı üçün yeni başlanğıc nöqtəsi ola bilər. Bizim mövqeyimiz çox aydındır. Biz münaqişənin həll olunduğunu hesab edirik, keçmişə qayıdış olmamalıdır, Ermənistanda revanşizm əlamətləri olmamalıdır. Biz gələcək haqqında, sülh haqqında və regionu necə daha da sabit və təhlükəsiz etmək imkanları haqqında danışmalıyıq.



***- Siz bunları söyləmək üçün baş nazir Paşinyana zəng etməyə hazırsınızmı?***

- Ola bilsin ki, sizin dediyiniz kimi yox. Adətən iki ölkə rəhbəri arasında təmaslar ATƏT-in Minsk qrupu çərçivəsində təşkil olunurdu. Onlar gündəliyi təklif edirdi, onlar görüşləri təşkil edirdi. Mənim prezidentlik təcrübəmdə heç vaxt Ermənistanın hər hansı bir rəhbəri ilə telefon danışığım olmayıb. Yəqin ki, bu yanaşma bunu etmək üçün doğru yol deyil. Lakin Minsk qrupunun həmsədrləri belə bir görüş təklifi ilə çıxış etsələr, əlbəttə, biz buna qarşı çıxmarıq.

***- Müharibənin ildönümü ilə əlaqədar müraciətinizdə Siz dediniz ki, - mən Sizdən sitat gətirirəm: “Əgər biz erməni faşizminin bir daha baş qaldırdığını görsək, yeni təhlükə görsək, heç bir tərəddüd etmədən erməni faşizmini yenidən əzəcəyik”. Bu, sülh mesajı kimi səslənmir, elə deyilmi?***

- Bilirsiniz, bu, Ermənistandakı vəziyyəti əks etdirən bir fikirdir. Regionda sülhün bərqərar olunması ilə bağlı bizim mövqeyimizə gəldikdə, mən bir neçə dəfə açıq bəyanatlar vermişəm və yəqin siz internetə baxsanız onları tapa bilərsiniz. Bunlar xüsusilə sərhədlərin delimitasiyası və demarkasiyası üzərində işə başlamaqdan, Ermənistanla sülh sazişinin üzərində aparılacaq hərtərəfli danışıqlara hazırlaşmağa başlamaqdan ibarətdir. Bütün bunlar xoşməramlı jestlərdir. Yeri gəlmişkən, bunların heç birinə Ermənistan rəhbərliyi tərəfindən adekvat cavab verilməyib. Onlar ya bu təkliflərə məhəl qoymur, ya da ki, hazır olmadıqlarını deyirlər. Lakin mənim bəyanatım öz mənşəyini Ermənistanda müşahidə etdiyimiz tendensiyadan götürür. Bu siyasi istablişmentin bəzi dairələrində revanşizm tendensiyasıdır. Söhbət təkcə müxalifətdən getmir, iqtidardan da gedir. İntiqam almaq üçün ictimai bəyanatlardan və daha önəmlisi praktiki addımlardan, Ermənistanı militarizasiya etmək cəhdlərindən, bir məqsəd xatirinə edilən, müharibəyə yenidən başlamaq üçün yeni müasir avadanlıqlara çıxış əldə etmək cəhdlərindən gedir. Buna görə, mənim sözlərim kobud görünə bilər, lakin bu sözlərin əsas məqsədi Ermənistan rəhbərliyi və Ermənistan siyasi istablişmentini istənilən revanşizm əlamətlərinə, xalqımıza, dövlətçiliyimizə və ərazi bütövlüyümüzə qarşı istənilən təhlükəyə cavab veriləcəyi haqqında xəbərdar etməkdən ibarət idi. Onlar bizim necə cavab verdiyimizi bilir və İkinci Qarabağ müharibəsi onların bizim qarşımızda heç bir şansının olmadığını göstərdi. Biz müharibəyə başlamaq istəmirik. Bu, bizə lazım deyil. Danışıqlar aparılan illər ərzində bu, bizə heç vaxt lazım olmayıb. Lakin indi hesab edirəm ki, revanşizm səylərindən vaz keçmək və gələcəyə doğru baxmaq üçün onlara xəbərdarlıq etmək vaxtıdır.

***- Burada bir məsələ var. Siz hesab edirsinizmi ki, bütün əraziləri geri qaytarmısınız? Əvvəllər Sizin bəyanatlarınız olub ki, Ermənistanın paytaxtı İrəvan qədim Azərbaycan torpağıdır. Bəli, Siz ötən il torpaqları geri qaytardınız, ancaq yenə də müəyyən suallar var. Ermənistanın özünün hesab etdiyi ərazilərlə bağlı hər hansı iddianız varmı?***

- Xeyr. Mənim bəyanatlarımda siz heç vaxt ərazi iddialarının əlamətlərini tapa bilməzsiniz. Mənim nəzərdə tutduğum tarixi həqiqətdir. Bu, bir tarixi faktdır ki, 1920-ci ildə sovet hakimiyyəti Azərbaycanın ayrılmaz hissəsi olan Zəngəzuru qopararaq onun Ermənistana birləşdirilməsi ilə bağlı qərar qəbul edib və bu qərar icra olunub. Bu hadisə 1920-ci ildə baş verib - 101 il bundan əvvəl. Tarixi torpaqlarımız haqqında danışarkən mən ərazi iddialarından bəhs etmirdim. Siz mənim heç bir çıxışımda buna rast gələ bilməzsiniz. Bununla yanaşı, hər bir ölkə kimi, biz də tariximizi bilməli, gənc nəsil qədim tariximizi bilməli, keçmişdə hansı ərazilərdə yaşadığımızdan xəbərdar olmalı və oralara necə qayıtmalı olduğunu bilməlidir. Əminəm ki, biz oralara qayıdacağıq. Mən artıq bunu demişdim ki, biz ora tanklarla deyil, piyada, avtomaşın və təyyarələrlə gedəcəyik. Vəziyyət normallaşandan sonra sülh müqaviləsinə nail olunacaqsa, niyə də biz geri qayıtmayaq? Bu, bizim legitim hüququmuzdur. Lakin sualınıza cavab verərkən tamaşaçılarınızın diqqətini bir məsələyə cəlb etmək istəyirəm ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları var. Onlar hələ də iddia edirlər ki, “Dağlıq Qarabağ” bizə məxsus deyil. Onlar hələ də iddia edirlər ki, o, ya Ermənistana məxsusdur, ya da ki, “müstəqil” bir qurumdur. Azərbaycanın siyasi və coğrafi xəritəsində “Dağlıq Qarabağ” adlı vahid yoxdur. Belə bir qurum mövcud deyil. Beləliklə, Ermənistan, ilk növbədə, Azərbaycana qarşı istənilən ərazi iddiasını geri götürməli və özünü yaxşı aparmalıdır. Biz isə adekvat münasibət göstərəcəyik.

***- Siz Qarabağa muxtariyyət verməyə hazırsınız? Minsk qrupunun üzvü ABŞ hələ də bəyan edir ki, Qarabağ məsələsi öz həllini tapmayıb. Siz bəyan edirsiniz ki, məsələ həllini tapıb və Qarabağ sizə məxsusdur. Lakin illər ərzində bu münaqişədə vasitəçilik edən bir sıra ölkələr iddia edir ki, məsələ həll edilməyib.***

- Mənim məsələnin həll edilmədiyini deyən həmin ölkələrə tövsiyəm odur ki, öz ərazilərində erməniləri yerləşdirmək və öz ərazilərində ikinci Ermənistan dövləti yaratmaq üzərində düşünsünlər. Niyə onlar hesab edirlər ki, hər hansı hüquqi, siyasi və tarixi əsaslar olmadan Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmalıdır? Mən deyəndə ki, münaqişə həllini tapıb, bu, mənim mövqeyimdir. Mən bu mövqeyi müdafiə edirəm. Mövcud reallıq onu nümayiş etdirir ki, bu, düzgün mövqedir. Münaqişənin həll olunmaması ilə bağlı istənilən bəyanat yersiz olmaqla yanaşı, təhlükəlidir. Münaqişə həll edilməyib deyənlər göstərsinlər ki, o, necə həll olunmalıdır. “Dağlıq Qarabağ” dedikdə onlar nəyi nəzərdə tuturlar? Hansı sərhədlər çərçivəsində, hansı ərazidə, hansı formada? Həmin sualları cavablandırmaq üçün eyham belə yoxdur. Bu səbəbdən münaqişənin həll edilmədiyini söyləmək qeyri-səmərəli və təhlükəlidir. Bu, o deməkdir ki, onu həll etmək üçün düşmənçilik xarakterli digər hərəkətlərə ehtiyac var. Sizin muxtariyyətlə bağlı sualınıza gəldikdə, Minsk qrupunun həmsədrləri 28 il sürən mənasız danışıqlarda Azərbaycanın mövqeyindən çox yaxşı xəbərdardırlar. Biz Azərbaycanda yaşayan ermənilərə müəyyən səviyyədə özünüidarəetmə təqdim etməyə hazır idik. Ermənilər hər zaman bunu rədd edirdilər. Onlar hər zaman “yox” deyirdilər - yalnız müstəqillik. İndi isə münaqişə başa çatdığından, onlar muxtariyyət haqqında danışırlar. Bu isə bizim gündəliyimizə daxil deyil. Bu gün Qarabağda Rusiya sülhməramlılarının məsuliyyət zonasında yaşayan ermənilər ölkəmizdə yaşayan digər etnik qrupların nümayəndələri kimi Azərbaycan vətəndaşlarıdır.

***- Yəni, onlara muxtariyyət verilməyəcək. Bu, artıq müzakirə mövzusu deyil?***

- Tamamilə doğrudur, bu, artıq müzakirə mövzusu deyil.

***- Sualım Fransanın mövqeyi ilə bağlıdır. Fransa Sizin bəzi hərəkətlərinizi tənqid etdi və bu yaxınlarda Ermənistanla sərhəddən geri çəkilməyə çağırdı. Siz Fransanı dürüst vasitəçi hesab edirsiniz?***

- Bilirsiniz, müstəqilliyimizin bütün illərində biz ikitərəfli əlaqələrimizdə Fransa ilə bu mövzuda və bir çox digər məsələlərdə fəal çalışırdıq. Fransa hər zaman Azərbaycanda dost ölkə hesab olunub. Biz bir çox iqtisadiyyat, ticarət və infrastruktur layihələrini həyata keçirmişik. Münasibətlər uğurla inkişaf edirdi və biz ümid edirik ki, Minsk qrupunun həmsədri və dürüst vasitəçi kimi Fransa bu vəzifəyə sadiq olacaq. Fransa Minsk qrupunun həmsədri olmasaydı, əlbəttə, onun istənilən ölkə ilə münasibət qurması öz işi olardı. Bizim Fransa ilə Ermənistanın tarixi əlaqələrindən, Fransada fəal erməni icmasının olmasından və onların qərar qəbul edən şəxslərə mümkün təsirindən xəbərimiz var. Ancaq, səmimi desəm, müharibə zamanı Fransa özünü dürüst vasitəçi kimi aparmadı. Fransa tərəf seçdi - Ermənistanın tərəfini. Özünün hərəkət və bəyanatlarında Azərbaycanı açıq şəkildə ittiham etdi və qərəzli yanaşma nümayiş etdirdi. Təbii ki, bu məsələ narahatlıq doğurdu. Biz bu narahatlığı ifadə etdik, çünki bir daha qeyd etmək istəyirəm ki, istənilən ölkənin seçimləri, dostları və qeyri-dostları ola bilər.

*Ardı Səh. 7*

# “Ermənistan Azərbaycana qarşı istənilən ərazi iddiasını geri götürməli və özünü yaxşı aparmalıdır”

## Prezident İlham Əliyev “France-24” televiziya kanalına müsahibə verib



Əvvəli Səh. 6

Bu, onların öz işidir və burada biz heç nə deyə bilmərik. Lakin bir ölkə vasitəçi olması ilə bağlı ATƏT-in mandatına sahibdirsə, bu halda ölkə bitərəf olmalıdır. Müharibə zamanı və ondan dərhal sonra baş verənlərə qayıtmaq istəmirəm, biz Parisdən gələcək münasibətlərimizlə bağlı müsbət siqnallar aldıq və onlara müsbət cavab verdik. Müxtəlif səviyyələrdə, o cümlədən bu yaxınlarda iki ölkənin xarici işlər nazirləri arasında təmaslar olmuşdur. Azərbaycan hər zaman əməkdaşlığa açıq olub. Fransa dünyada aparıcı dövlətlərdən biridir və biz normal münasibətlərin olmasını istəyirik. Hesab edirəm ki, müharibənin başlanmasından bir ilin keçməsinə baxmayaraq, regionda nəyə nail olmaq istədiyimizə gəldikdə, çox realist yanaşmanın tətbiq edilməsi vaxtı yetişib. Əminəm ki, Fransa regionda sülhü, sabitliyi, təhlükəsizliyi arzulayır. Biz də bunu istəyirik. Ümid olunur ki, Ermənistan da istəyir. Biz bunun üzərində işləməliyik, buna diqqətlə yanaşmalıyıq və bir il əvvəl baş verənlərə qayıtmalı deyilik. Bizə gəldikdə, bu çox xoşagəlməz hadisələrdən sui-istifadə etməyəcəyik. Biz səhifəni çevirmək istəyirik.

***- Müsahibənin sonuna yaxınlaşırıq. Cənab Prezident, Sizə əlavə iki sualım da var. Hərbi əsirlərə gəldikdə, “Human Rights Watch” Azərbaycanı onları saxlamaqda, onlara işgəncə verilməsində ittiham edir. Buna cavabınız necə olardı? Xoşməramlı jest kimi, Ermənistanla onları mübadilə etməyə hazırsınızmı?***

- Biz, əlbəttə, bu ittihamları rədd edirik. Müharibə zamanı əsir götürülmüş bütün hərbi əsirlər Ermənistana qaytarılıb. Ermənistan hökuməti bunu təsdiq edə bilər. Biz onları, hətta onlar bizim hərbi əsirləri qaytarmazdan əvvəl qaytardıq. QHT-lərin istinad etdiyi həmin şəxslərə gəldikdə, onlar müharibə başa çatdıqdan və noyabr Bəyannaməsi imzalandıqdan iki həftə sonra Ermənistanın hərbi komandirləri tərəfindən bizim mövqelərə doğru göndərilmişdilər və beləliklə, dörd azərbaycanlı hərbçini qətlə yetirərək cinayət törətmişlər. Onlar zərərsizləşdirildi və həbs olundular. Cinayətdə iştirakı olmayanların çoxu artıq qaytarılıb. Cinayət törədənlərə isə məhkəmələr tərəfindən cəza müəyyən edilib.

***- Ermənistan isə iddia edir ki, siz hələ də hərbi əsirləri saxlayırsınız və həqiqəti söyləmirsiniz.***

- Xeyr. Həmin saxlanılmış şəxslər sinifləşdirməyə, bütün beynəlxalq konvensiyalara uyğun olaraq, hərbi əsir hesab edilə bilməz. Hərbi əsirlər müharibə zamanı əsirliyə düşmüş insanlar hesab edilir. Noyabrın 10-da müharibə dayandırıldı. Dekabrın əvvəlində biz azad etdiyimiz ərazidə erməni təxribat dəstəsinin 62 üzvünü aşkar etdik. Onlar əraziyə noyabrın 26-da göndərilmişdi. Yəni, müharibə bitdikdən 16 gün sonra. Onlar hərbi əsir hesab edilə bilməz və biz onların çoxunu xoşməramlı jest kimi artıq qaytarmışıq. Lakin burada qalıb cəzasını çəkən şəxslər cinayət törədib və onlar ədalət mühakiməsi qarşısında cavab verməli idilər və bu, belə də oldu.

***- Cənab Prezident, sonuncu sual: “Sərhədsiz reportyorlar” təşkilatı Sizə müraciət edərək, Azərbaycan blogeri Məhəmməd Mirzəliyə qarşı hədələrə və zorakılığa son qoymağa çağırıb. O, Fransada qaçqın kimi yaşayır. Mart ayında burada ona şiddətli hücum edilib, bıçaq xəsarəti alıb. Sualım belədir: “Sərhədsiz reportyorlar” təşkilatının rəyinə görə, Siz həmin şəxsləri susdurmaq məqsədilə xaricə adamlar göndərirsiniz.***

- Əvvəlcə deyim ki, biz “Sərhədsiz reportyorlar” kimi QHT təşkilatı ilə uzun illər əvvəl hər hansı ünsiyyəti dayandırmışıq. Bu, bəlkə də 15 il əvvəl baş verib və bu, onların Azərbaycanla bağlı çox qərəzli və ədalətsiz mövqeyi ilə əlaqədardır. Bu səbəbdən onların hesabatı mənim üçün və Azərbaycan xalqı üçün heç bir əhəmiyyət daşımır. Avropada, o cümlədən Fransada yüzlərlə insan yaşayır və Azərbaycanda gördüyümüz işlər onların xoşlarına gəlmir. Onlar Fransada, başqa ölkələrdə yaşayırlar və heç kəs onlara toxunmur. Əgər sizin ölkədə yaşayan insanla bağlı hadisə baş verirsə, bunun araşdırılması məhz sizin ölkənizin hüquq-mühafizə orqanlarının işidir. Azərbaycanı bu məsələdə günahlandırmaq QHT-nin işi deyil. Sizin istintaqçıların bıçaqla xəsarət yetirmə halı ilə bağlı kifayət qədər sübutları varmı?

***- Siz həmin şəxslə hər hansı əlaqənin olduğunu rədd edirsiniz?***

- Tamamilə belədir. Yüz faiz rədd edirəm. Hər hansı sübut, araşdırma olmadan və kimin hansı cinayəti törətdiyini müəyyən etmədən bütün ittihamlar tamamilə əsassızdır və qərəzlidir.

***- Prezident İlham Əliyev, “France-24” kanalına müsahibə verdiyinizə və kanalımızı seyr etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.***

- Dəvətinizə görə minnətdaram. Sağ olun.

# Almaniyanın “Ştern” nəşri: Üçtərəfli Bəyanat ermənilər üçün milli həqarətə çevrildi

***Almaniyanın “Ştern” nəşrində Azərbaycan xalqının işğal altında olan ərazilərinin azad edilməsi uğrunda Vətən müharibəsinin başlanmasının birinci ildönümü barədə məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, “Ermənistanda və Azərbaycanda Qarabağ münaqişəsinin qurbanları yad edilir” sərlövhəli məqalədə Cənubi Qafqazın hər iki ölkəsində dünən bir dəqiqəlik sükut və anma mərasimlərinin keçirildiyi qeyd olunur.***




“Biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq”, - deyə Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətindən sitatlar gətirən alman nəşri Azərbaycan liderinin ciddi xəbərdarlığını da diqqətə çatdırır: “Əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik”. Məqalədə həlak olan yoldaşlarının portretlərini əllərində tutan minlərlə əsgərin Bakı küçələrində yürüşü barədə də xəbər verilir.

Nəşr vurğulayır ki, ermənilərin çoxu müharibənin nəticələrini milli həqarət kimi qəbul edirlər. Onlar bunun günahını hər şeydən əvvəl hökumət başçısı Nikol Paşinyanda görürlər. “Ştern” nəşri yazır: “Gərginlik yüksək olaraq qalmaqdadır. Sərhəd boyunca qarşıdurmalar davam edir, bu da münaqişənin yenidən başlaması təhlükəsini gücləndirir”.

# “Davam” “ZəfərimİZ” adlı kampaniyaya start verib

***Kampaniya çərçivəsində ilk görüş Ucar rayonunda baş tutub. SİA-nın verdiyi məlumata görə, tədbir Ümummilli lider Heydər Əliyevin Ucarın mərkəzində ucaldılmış abidəsi və Şəhidlər xiyabanının ziyarət olunması ilə başlayıb.***



Sonra isə Ucar Gənclər Evində karantin qaydalarına uyğun olaraq açıq hava şəraitində “Zəfər savaşı və tarixi qalibiyyət” adlı tədbir baş tutub. Tədbirdə millət vəkili Ramil Həsən, Ucar Rayon İcra Hakimiyyətinin Başçısının müavini, YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva, “Davam” Gənclər Hərəkatının sədri Nihad Allahyarlı, Ucar Rayon Təhsil şöbəsinin müdiri Rauf Məmmədov, Ucar Gənclər Evinin direktoru Elamin Dibirov iştirak edib.

Tədbirdə çıxış edən natiqlər Zəfərə gedən yolu, Müzəffər Ali Baş Komandanın uzun dönəm üçün hesablanmış xarici siyasətini, ordu quruculuğu, müdafiə sənayesinin inkişafı və 44 günlük Vətən Savaşında baş verən dinamik hadisələr haqqında fikir mübadiləsi aparıb, Zəfər tarixinin gənc nəslin yetişdirilməsində ən vacib təməl daşlarından biri olduğunu qeyd ediblər.

# Beynəlxalq şirkətlər Azərbaycan iqtisadiyyatını dayanıqlı hesab edir

***Son illər ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və əlverişli investisiya qoyuluşunun təmin edilməsi istiqamətində mühüm islahatlar həyata keçirilir. Bu, öz müsbət nəticələrini verməkdədir. Təsadüfi deyil ki, COVID-19 pandemiyasının dünya iqtisadiyyatında yaratdığı böhran şəraitində belə Azərbaycan iqtisadiyyatı öz inkişaf templərini qoruyub saxlaya bildi və bu böhrandan minimum itkilərlə çıxmağa nail oldu.***

Azərbaycanın əldə etdiyi uğurlar, aparılan islahatların müsbət nəticələri beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda, keçirilən rəy sorğularında da əksini tapır. Son hesabatlarda Azərbaycan investisiya yatırımı üçün cəlbedici ölkə kimi göstərilir.

AZƏRTAC xəbər verir ki, Alman-Azərbaycan Xarici Ticarət Palatasının (AHK) təşkilatçılığı ilə cari iqtisadi vəziyyət və biznesin inkişaf perspektivləri, həmçinin ölkədə investisiya mühiti və həyata keçirilən iqtisadi islahatların səmərəliliyi haqqında "Azərbaycanda Xarici Biznes: Biznes Mühiti Sorğusu 2021" hesabatında beynəlxalq şirkətlərin Azərbaycan iqtisadiyyatını dayanıqlı hesab etdikləri əksini tapıb.

Haqqında söhbət açdığımız hesabat ölkəmizdə pandemiyanın iqtisadiyyata təsirinin müəyyənləşdirilməsi və təhlil edilməsi, həmçinin mənfi təsirlərin minimuma endirilməsi istiqamətində həyata keçirilən islahatların qiymətləndirilməsində faydalı platformadır. Bu cür hesabatlar işgüzar dairələrin rəyinin öyrənilməsi, biznes çağırışlarının dəyərləndirilməsi baxımından əhəmiyyətlidir.

## Azərbaycanda fəaliyyət göstərən şirkətlərin 68 faizi ölkəmizin iqtisadi vəziyyətini sabit qiymətləndirir

"Azərbaycanda Xarici Biznes: Biznes Mühiti Sorğusu 2021" hesabatının hazırlanması zamanı ölkəmizdə təmsil olunan xarici şirkətlər arasında ətraflı sorğular aparılıb, onların işgüzar mühit, habelə işğaldan azad edilmiş ərazilərdə biznesin qurulması və bərpa işlərində iştirakı barədə fikirləri öyrənilib.

Hesabat Azərbaycanda fəaliyyət göstərən xarici biznes nümayəndələri arasında 2021-ci ilin may-iyul aylarında keçirilən Biznes Mühiti Sorğusunun nəticələrinə əsaslanır. Hesabatın hazırlanması üçün Azərbaycanda fəaliyyət göstərən və 30 ölkəni təmsil edən (Almaniya, Böyük Britaniya, ABŞ, İsveçrə, Türkiyə və sair) 270 xarici şirkətə sorğu göndərilib, dəyərləndirmə üçün 130 etibarlı və tamamlanmış cavab seçilib. Sorğuda iştirak edən xarici şirkətlərin 88 faizi mikro müəssisələr və KOB-lardır. Şirkətlərin 67 faizi on ildən çoxdur ki, Azərbaycanda öz layihələrini həyata keçirir. Respondentlərin 68 faizi Azərbaycan iqtisadiyyatının mövcud vəziyyətini sabit qiymətləndirib. Əvvəlki hesabatda isə bu göstərici 39 faiz təşkil edirdi. Bu qiymətləndirmənin əsas səbəbləri sırasında vergi sistemində edilən dəyişikliklər və



## Azərbaycanda xarici biznes mühitinə dair sorğuda iştirak edən şirkətlərin 43 faizi Qarabağ və Şərqi Zəngəzurda həyata keçiriləcək layihələrə maraq göstərir

COVID-19 pandemiyasının kəskin vaxtlarında dövlətin sahibkarlara göstərdiyi dəstək dayanır. Həmçinin maliyyə sektorunda aparılan islahatlar da beynəlxalq şirkətlərin müsbət qiymətləndirdikləri məqamdır.

## Azərbaycan biznes investisiyaları üçün mühüm ərazi kimi dəyərləndirilir

Azərbaycanda aparılan genişmiqyaslı iqtisadi islahatlar, qeyri-neft sektorunun inkişafı və dövlətimizin başçısı tərəfindən irəli sürülən, Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən "Qara qızılın insan kapitalına çevrilməsi" strategiyası dayanıqlı, stabil və çoxşaxəli iqtisadiyyatımızın formalaşmasına gətirib çıxarıb. Bütün bunların nəticəsidir ki, aparılan sorğuda xarici şirkətlərin 57 faizi Azərbaycanda fəaliyyətini genişləndirmək və ya yeni investisiya qoymaq niyyətini ifadə ediblər.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə yaranan yeni investisiya imkanları beynəlxalq şirkətlərin diqqətini cəlb edib və Azərbaycan biznes investisiyaları üçün mühüm ərazi kimi qiymətləndirilib. Bu qiymətləndirmə ötən ilə nisbətə 50 faizdən 60 faizə yüksəlib. AHK-ya üzv şirkətlər işğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq layihələrinə böyük maraq göstərirlər. Şirkətlərin 61 faizi bu layihələrdə podratçı/subpodratçı kimi çıxış etmək və ya dövlət-özəl tərəfdaşlığı çərçivəsində iştirakda maraqlıdırlar. Sorğuda iştirak edən xarici şirkətlərin 43 faizi fəaliyyət sahələri üzrə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda həyata keçiriləcək layihələrdə iştirak edə biləcəklərini, 22 faizi bu layihələrdə iştirakının mümkünlüyünü bildiriblər. Onların əksəriyyəti (17 faiz) tikinti, telekommunikasiya və informasiya texnologiyaları sahələrinə daha çox maraq göstərirlər.

## Azad edilmiş ərazilərdə yeni sənaye zonalarının yaradılması investisiya imkanlarını daha da genişləndirəcək

Vətən müharibəsində əldə edilən şanlı Qələbədən dərhal sonra Qarabağda böyük quruculuq işlərinə başlanılıb. Avtomobil yolları yenidən qurulur və bərpa olunur, hava limanları inşa edilir. Azad olunmuş ərazilərimizdə reallaşdırılacaq "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları burada yeni biznes və investisiya imkanları yaradır. Bu ərazilərin zəngin sərvətləri, mineral resursları, kənd təsərrüfatı və heyvandarlıq sahələri, həmçinin bölgənin turizm potensialı xarici şirkətlərin diqqətini cəlb edir. Ağdam Sənaye Parkının strateji əhəmiyyəti və azad edilmiş ərazilərdə yeni sənaye zonalarının yaradılması xarici şirkətlərin investisiya imkanlarını daha da genişləndirəcək.

Bundan əlavə, Azərbaycanın tranzit potensialı da investisiyaların cəlbində xüsusi rola malikdir. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası Azərbaycanı tranzit mərkəzinə çevirməklə yanaşı, yük daşımaları sahəsində potensialı olan ölkələrə ucuz və qısa zamanda daşıma imkanları təqdim edir. Bu amillərin nəticəsidir ki, respondentlərin 60 faizi (əvvəlki hesabatda 50 faiz) Azərbaycanı əlverişli biznes məkanı kimi tövsiyə edir. Xarici iş adamları inanır ki, işğaldan azad edilmiş ərazilərimizdə bərpa işlərinin aparılması Xəzər bölgəsində təhlükəsizliyin və stabilliyin gücləndirilməsinə, beynəlxalq nəqliyyat və kommunikasiya layihələrinin həyata keçirilməsinə, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə töhfə verməklə yanaşı, dünyada ölkəmizin investisiya cəlbediciliyini və rəqabət qabiliyyətini artıracaq.

Sorğuda iştirak edənlərin 71 faizi Azərbaycandakı siyasi sabitliyi, 49 faizi təhlükəsiz ölkə olduğunu, 39 faizi infrastruktura davamlı sərmayə qoyuluşunu xüsusi vurğulayıb. Azərbaycan həyata keçirilən davamlı infrastruktur layihələri ilə dünyada qabaqcıl sıralardadır. Düzgün idarəetmə, neft sektoru ilə yanaşı, qeyri-neft sektoruna ayrılan diqqət davamlı infrastruktur layihələrinin həyata keçirilməsinə əlverişli imkanlar yaradır.

Son olaraq qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən ölkə həyatının bütün sahələrinə xüsusi diqqət ayrılır və dayanıqlı inkişaf üçün genişmiqyaslı layihələr həyata keçirilir. İstər siyasi, istər sosial, istərsə də iqtisadi sferada tətbiq olunan düzgün strategiya ölkəmizi sülh içərisində, təhlükəsiz yaşamaq və münbit şəraitdə çalışmaq üçün cəlbedici edir.



# YAP Gənclər Birliyi Gəncədə erməni terroru nəticəsində həlak olan şəhər sakinlərinin xatirəsini anıb





**Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin (GB) təşkilatçılığı ilə partiyanın ətraf bölgələri təmsil edən fəal gəncləri Gəncədə Ermənistanın günahsız mülki insanlara qarşı raket hücumları ilə törətdiyi cinayət yerini ziyarət edib, həlak olan şəhər sakinlərinin xatirəsini anıblar.**

Tədbirdə YAP GB sədri Bəxtiyar İslamov, Milli Məclisin deputatları Naqif Həmzəyev, Müşfiq Cəfərov, Pərvin Kərimzadə, Gəncə Şəhər İcra Hakimiyyətinin nümayəndələri və YAP Gənclər Birliyinin üzvləri iştirak ediblər.

Partiya üzvləri ötən ilin oktyabrında Gəncədə erməni terroru nəticəsində çoxlu sayda mülki şəxsin öldüyü, yaralandığı və böyük dağıntıların yarandığı əraziyə gəliblər. Məlumat verilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri 44 günlük Vətən müharibəsində beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub.

Düşmənin Azərbaycanın ikinci böyük şəhəri, yarım milyon əhalisi olan və münaqişə zonasından 100 kilometrdən artıq məsafədə yerləşən Gəncə şəhərinə raket hücumları nəticəsində aralarında qadın və uşaqlar da olmaqla 26 mülki şəxs həlak olub, 142 nəfər isə yaralanıb. Şəhərdə mülki infrastruktur obyektlərinə, tarix-mədəniyyət abidələrinə, o cümlədən nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

YAP GB-nin sədri Bəxtiyar İslamov bildirib ki, 11 rayonu təmsil edən gənclərlə birlikdə bu əraziləri ziyarət edib, şəhidlərin xatirəsini anmağı özlərinə borc bildiklərini deyib. Bildirib ki, ermənilər tərəfindən törədilən bu vandalizm aktı heç vaxt unudulmayacaq.

Gənclər Birliyinin üzvləri erməni terroru nəticəsində yerləbir olmuş yaşayış binasının ətrafına həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq gül dəstələri düzüblər.

# Macarıstanlı politoloq: “Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasında çıxışı geniş əhatəli idi”



Regional təhlükəsizlik məsələləri üzrə ekspert, macarıstanlı politoloq Attila Hargitai AZƏRTAC-ın müxbiri ilə söhbətində BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışını yüksək qiymətləndirib. AZƏRTAC xəbər verir ki, politoloq Azərbaycanın dövlət başçısının nitqini genişəhatəli və məzmunlu nitq kimi səciyyələndirib. A.Hargitai deyib: “Prezident İkinci Qarabağ müharibəsinin başlanmasının birinci ildönümü ərəfəsində çıxış edib. Bu müharibə nəticəsində regionda tamamilə yeni geosiyasi reallıq əmələ gəlib. Bu reallıq müharibəyə qədər mövcud olan və uzunömürlü olmayacağı barədə təkcə azərbaycanlı siyasətçilər tərəfindən deyil, müəyyən məqamda ATƏT-in Minsk qrupu həmsədrlərinin özləri tərəfindən də xəbərdarlıq edilən status-kvonu darmadağın etdi”.

Macarıstanlı politoloq qeyd edib ki, indi toplar susub və hər iki dövlətin hər şeyi regional əməkdaşlıq əsasında yeni səhifədən başlaması üçün yaxşı imkan yaranıb. “Sülh sazişinin və sərhədləri qarşılıqlı tanımağın alternativi yoxdur. Məsələn, biz macarlar hər bir qonşu dövlətdə sayca əhəmiyyətli olan macar icmalarının kompakt yaşaması faktına baxmayaraq, bütün qonşularımızla sərhədləri tanımışıq”, - deyə o, Ermənistanın da örnək götürməli olacağı düzgün nümunəyə işarə edib.

Macarıstanlı ekspert Azərbaycanın dövlət başçısının BMT Baş Assambleyasının tribunasından çıxışında “peyvənd millətçiliyi” və eqoizm mövzusuna toxunması faktını da yüksək dəyərləndirib. O bildirib ki, “sənaye cəhətdən inkişaf etmiş dövlətlər buna görə xəcalət çəkməlidirlər”.

# Gəncə şəhərində “Ümumrespublika Xəmsə Festivalı”nın IX regional turu baş tutub











Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilatçılığı ilə Gəncə Şəhər Heydər Əliyev Mərkəzində “Ümumrespublika Xəmsə Festivalı”nın IX mərhələsi keçirilib.



Əvvəlcə layihə iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər.

Daha sonra canlarını Azərbaycanın ərazi bütövlüyü uğrunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

YAP Gəncə Şəhər təşkilatı sədrinin səlahiyyətlərini icra edən, Milli Məclisin deputatı Naqif Həmzəyev Prezident İlham Əliyev tərəfindən 2021-ci ilin “Nizami Gəncəvi ili” elan edilməsinin önəminə toxunub, bildirib ki, bu müdrik addım gənc nəslin öz tarixi köklərinə bağlı şəkildə yetişməsinə müstəsna töhvələr verir. Bu istiqamətdə müxtəlif tədbirlər keçirilir ki, onlarında böyük əksəriyyətində gənclər yaxından iştirak edir və beləliklə gənc nəsilə Azərbaycan xalqının milli dəyərləri aşılanır. “Ümumrespublika Xəmsə Festivalı”nın həm IX regional həm də final turunun Gəncə şəhərində keçirilməsinin bölgədən olan gənclər üçün əlamətdar hadisə olduğunu diqqətə çatdıran N.Həmzəyev bu təşəbbüsün gənclərin biliklərinin əyani şəkildə möhkəmlənməsində önəmli rol oynayacağını ifadə edib.



Çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov məlumat verib ki, “Ümumrespublika Xəmsə Festivalı”nın Respublikanın bütün bölgələrini əhatə etməklə artıq IX regional turu keçirilir ki, bu mərhələdən sonra həmin turlarda qalib gəlmiş komandalar final mərhələsində birincilik uğrunda mübarizə aparacaqlar . Ümumilikdə 420 nəfər gənci əhatə edən layihə ölkəmizin müxtəlif bölgələrində intellektual potensiala malik olan gənclərin üzə çıxarılmasında önəmli əhəmiyyətə malikdir. YAP Gənclər Birliyi tərəfindən keçirilən layihələrin gənclər üçün faydalı olmasına xüsusi diqqət yetirildiyini nəzərə çatdıran B.İslamov festivalın Gəncə şəhərini əhatə etməsinin də məhz simvolik əhəmiyyət daşıdığını qeyd edib.



Gədəbəy, Naftalan, Qazax, Ağstafa, Kəlbəcər, Tovuz, Daşkəsən, Göygöl, Şəmkir, Samux və Gəncə bölgələrini təmsil edən YAP üzvü və bitərəf gənclərdən formalaşmış komandaların iştirakı ilə keçirilən IX regional turun nəticəsində “Gəncə” və “Qazax” komandaları final mərhələsinə vəsiqə qazanıb. Qeyd edək ki, layihənin final turu oktyabr ayında Gəncə şəhərində keçiriləcək.

# Müdafiə Nazirliyi növbəti erməni yalanını ifşa etdi



**Azərbaycan Ordusunun atəşi nəticəsində guya Ermənistan hərbçisinin yaralanması həqiqətə uyğun deyil. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, sentyabrın 28-də Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Ermənistan silahlı qüvvələrinin bölmələri istiqamətində atəş açılması və nəticədə qarşı tərəfin hərbi qulluqçusunun yaralanması barədə Ermənistan mətbuatının yaydığı məlumat həqiqətə uyğun deyil.**

Qeyd edək ki, bu gün Ermənistan KİV-ində guya Azərbaycan Ordusunun Ermənistan istiqamətində atəş açdığı və atəş nəticəsində bir erməni hərbçisinin yaralanması barədə məlumatlar yayılmışdı.

# “Eureporter” nəşri: Zəngəzur dəhlizi bütün ölkələr üçün yeni iqtisadi imkanlar yaradacaq

**Avropa İttifaqının “Eureporter” nüfuzlu informasiya və analitik nəşrində məşhur politoloq Kolin Stivensın “44 günlük müharibə bölgənin geosiyasi mənzərəsini dəyişib” adlı məqaləsi dərc edilib (https://www.eureporter.co/-world/karabakh-/2021/09/27/the-44-day-karabakh-war-has-changed-the-geopolitical-regional-landscape).**

AZƏRTAC xəbər verir ki, məqalədə bir il əvvəl başlayan Vətən müharibəsinə yekun vurulur və onun Azərbaycan üçün qələbə ilə başa çatması nəticəsində region ölkələri üçün açılan imkanlar öyrənilir.

Müəllif yazır ki, 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan münaqişəsi regional iqtisadi inteqrasiya və təhlükəsizliyə ciddi problem yaradırdı. ATƏT-in Minsk qrupunun himayəsi altında aparılan danışıqlar prosesi, İrəvanın danışıqlar prosesinin onilliklər ərzində inkişaf etdirdiyi əvvəl əldə edilmiş razılaşmalar və prinsiplərdən imtina etməsi səbəbindən müvəffəqiyyətsizliyə uğradı. Nəticədə artan gərginlik və təxribatlar 44 günlük müharibə kimi tarixə düşən Azərbaycan ordusunun genişmiqyaslı hərbi əks hücumuna gətirib çıxardı.

Müəllif xatırladır ki, 44 gün davam edən İkinci Qarabağ müharibəsi 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya tərəfindən üçtərəfli bəyanatın imzalanması ilə başa çatdı. Bu bəyanata əsasən, Qarabağ bölgəsinə 1960 rusiyalı sülhməramlı, 90 zirehli maşın və 380 ədəd avtomobil və xüsusi texnika göndərildi. Bundan əlavə, Ağdam rayonunda atəşkəs rejiminin icrasının monitorinqinin aparılması üçün “Atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi” açıldı. Noyabr razılaşması, düşmənçiliyə və hərbi əməliyyatlara son qoyan əhəmiyyətli sənəd oldu. Sənədə əsasən, Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını geri qaytarmağı öhdəliyinə götürdü, Azərbaycan isə Ermənistanla Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilər arasında humanitar əlaqə kimi istifadə edilməli olan Laçın dəhlizinin təhlükəsizliyinə zəmanət verdi.

2021-ci il sentyabrın 27-si Azərbaycan üçün əlamətdar bir tarixdir, çünki ölkə 44 günlük müharibədə qələbənin birinci ildönümünü qeyd edir. Azərbaycan, ərazi bütövlüyünü bərpa edərək, Cənubi Qafqazda yeni bir dövrün - sülh və inkişaf üçün fürsət dövrünün başlanmasında əsas rol oynadı. 44 günlük müharibə Qarabağ münaqişəsinə son qoyduğundan, müharibədən sonrakı dövrdə tərəflərin əsas məqsədi nəqliyyat əlaqələrinin açılması və bölgədə davamlı sülhü təmin edəcək dövlət sərhədlərinin demarkasiyası/delimitasiyası yolu ilə iqtisadi münasibətlərin bərpa edilməsi olmalıdır.



eureporter
Voted best independent news platform 2021
KARABAKH
The 44-Day Karabakh War has changed the geopolitical regional landscape
PUBLISHED 21 HOURS AGO ON SEPTEMBER 27, 2021
By Colin Stevens

Azərbaycan artıq işğaldan azad edilmiş ərazilərin bərpası və bölgədəki bütün infrastrukturun inkişafı üzrə genişmiqyaslı proqrama start verib. Bu prosesdə bir çox beynəlxalq şirkətlər iştirak edir. Bu şirkətlər bütün zəruri avtomobil yolları, dəmir yollarının və iqtisadi inteqrasiyanın əsas elementləri olan digər infrastruktur obyektlərinin bərpası üçün çalışırlar. Müəllif qeyd edir ki, təhlükəsizlik və gələcək iqtisadi əməkdaşlıq baxımından əhəmiyyətli olan 4 və 9-cu maddələr də daxil olmaqla, noyabr üçtərəfli bəyanatının bütün bəndlərinin icrasında hələ də problemlər və çətinliklər mövcuddur.

Xatırlatmaq lazımdır ki, üçtərəfli bəyanatın 9-cu maddəsi Azərbaycanla onun Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələri daxil olmaqla, bölgədəki bütün kommunikasiyaların açılmasını nəzərdə tutur. Bunu nəzərə alaraq Zəngəzurun əhəmiyyətini vurğulamaq lazımdır. Ermənistan-İran sərhədini qoruyan Rusiya sərhədçiləri razılaşma əsasında Azərbaycanın qərb bölgələri ilə onun Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyinə təminat verməlidirlər.

Bütün yolların bərpası və Zəngəzur dəhlizinin yaradılması Ermənistana əhəmiyyətli üstünlüklər verir. Stivens qeyd edir ki, bölgədə nəqliyyat əlaqələrinin bərpası Yerevanın əsas iqtisadi problemlərindən birini - Rusiyanın rəhbərlik etdiyi Avrasiya İqtisadi Birliyinin bazarları ilə quru əlaqəsinin olmaması məsələsini də həll edəcək.

Ermənistan İranla iqtisadi əlaqələrini də inkişaf etdirə bilər. Uzunmüddətli münaqişə zamanı Ermənistan ölkəni Azərbaycan vasitəsilə İranla birləşdirən dəmiryoluna çıxışını itirdi. Ona görə də bu dəmir yolunun bərpası Yerevanla Tehran arasında ikitərəfli münasibətlərə müsbət təsir göstərəcək.

Müsbət dinamikaya baxmayaraq, 2020-ci ilin noyabr bəyanatının bütün bəndlərinin həyata keçirilməsində hələ də problemlər var. Noyabr bəyanatının 4-cü maddəsi bütün erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel olaraq Rusiya sülhməramlılarının yerləşdirilməsini nəzərdə tutur. Lakin müəllifin qeyd etdiyi kimi, bu bəndin həyata keçirilməyinə dair məlumatlar daxil olur. Laçın dəhlizi ilə erməni silahlı qüvvələrinin Qarabağ bölgəsinə göndərilməsinin davam edilməsi Azərbaycanın ciddi narahatçılığına səbəb olur ki, bu da bölgədə artan gərginliyə gətirə bilər.

Sonda politoloq yazır ki, bugünkü reallıq belədir: qanlı müharibə bitdi və Cənubi Qafqazda iqtisadi imkanlar yarandı. Azərbaycan üçün münaqişə keçmişdə qaldı və indiki Qarabağ iqtisadi rayonunun gələcək alternativ statusu ilə bağlı aparılan istənilən danışıqlar qətiyyən qəbuledilməzdir. Əksinə, Ermənistan “öz müqəddəratını təyinetmə” əsasında Qarabağın gələcək statusu ilə bağlı israr etməkdə davam edir və bu, təkcə Cənubi Qafqazda deyil, həm də dünyamızın bir çox yerində sabitliyi və sülhü təmin edən beynəlxalq hüququn əsas prinsipləri olan ərazi bütövlüyü və suverenliyinə qarşılıqlı hörmət olmadıqda tərəflər arasında gərginliyin davam edəcəyini göstərir.

## Şabran rayonunda Anım Günü geniş şəkildə qeyd edilib



27 sentyabr Vətən müharibəsi şəhidlərinin Anım Günü münasibətilə Şabran rayonunda bir sıra tədbirlər həyata keçirilib. SİA xəbər verir ki, Şabran şəhərindəki Şəhidlər Xiyabanında rayon icra hakimiyyəti başçısı Asif Hüseynov, YAP Şabran rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Mehdi Balabəyov, YAP Şabran rayon təşkilatının aparat işçiləri, şəhid ailələri və rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə şəhidlərin məzarları ziyarət olunub və ruhlarına dualar oxunub. Allahdan Şəhidlərimizə rəhmət,ailələrinə səbr diləyirik!

Anım Günü münasibətilə Şabran rayonunda bir sıra tədbirlər keçirilib. Şabran Rayon Mədəniyyət Mərkəzində "Xarıbülbül" pyesi tamaşaya qoyulub. Tamaşada Şabran rayon icra hakimiyyəti başçısı Asif Hüseynov, 54 saylı Şabran Siyəzən seçki dairəsindən seçilmiş millət vəkili Sadiq Qurbanov, YAP Şabran rayon təşkilatının sədri vəzifələrini icra edən Mehdi Balabəyov və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Bundan başqa rayonun Uzunboyad kəndində Uzunboyad, Rəhimli və Məliklər kəndlərindən olan şəhidlərin əziz xatirəsini yad etmək üçün inşa edilmiş Bulaq Abidə kompleksi və Parkın açılışı olub. Açılış mərasimində YAP Şabran rayon təşkilatının sədr səlahiyyətlərini icra edən Mehdi Balabəyov, 54 saylı Şabran-Siyəzən Seçki Dairəsindən seçilmiş millət vəkili Sadiq Qurbanov, YAP fəalları, şəhid ailələri, qazilər və rayon ictimaiyyətinin nümayəndəkəri iştirak ediblər.

***Rəfiqə Hüseynova***

## YAP Qazax rayon təşkilatı nümayəndələri şəhidlərin məzarlarını ziyarət etmişlər



YAP Qazax rayon təşkilatı Vətən müharibəsi şəhidləri Abdullayev Sərxan Elxan oğlunun və Orucov Elvin Rövşən oğlunun şəhid olmalarının ildönümü ilə əlaqədar məzarlarını ziyarət etmiş, ailələrinə baş çəkmişdir. Anım mərasimində çıxış edən YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov 44 günlük Vətən müharibəsi dönəmində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun möhtəşəm qələbə qazanaraq, dünya hərb tarixinə yeni şanlı səhifələr yazdığını bildirib. Təşkilat rəhbəri bildirdib ki, 44 günlük Vətən müharibəsində Azərbaycan xalqı, Müzəffər Azərbaycan ordusu tarixi zəfərini qazandı: "Şəhidlərimiz heç zaman unudulmayacaqlar, onlar daim xalqımızın qəlbində əbədi yaşayacaqlar".

***Rəfiqə***

## Şəhidlər ölməz, vətən bölünməz!

*Anım Günü Şamaxı rayonunda da silsilə tədbirlərlə qeyd olunub*



27 Sentyabr - Anım Günü Şamaxı rayonunda da silsilə tədbirlərlə qeyd olunub. Səhər saatlarında rayondakı məscidlərdə, həmçinin Şamaxı Cümə məscidində din xadimləri tərəfindən Şəhidlərin əziz xatirəsini yad edilib, ruhlarına dualar oxunub. Şamaxı rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, millət vəkili Tamam Cəfərova, YAP Şamaxı rayon təşkilatının sədr əvəzi Bəxtiyar Abbasov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərlərinin, idarə, təşkilat və müəssisələrinin kolletkivləri və rayon sakinləri tərəfindən Şəhidlər xiyabanı ziyarət olunub, məzarlar üzərinə tər çiçəklər düzülüb. Tədbirlər çərçivəsində Şəhidlər xiyabanı ətrafındakı ərazidə rayon ictimaiyyətinin iştirakı ilə 500 ədəd Eldar şamı ağacı əkilib. Ağacəkmədə YAP fəal gəncləri də yaxından iştirak edib.



Həmçinin, Şamaxı Tarix-diyarşünaslıq muzeyinin qarşısında təşkil olunmuş rəsmi tədbirdə çıxış edənlər "Dəmir yumruq" adlı əməliyyatla Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuzun böyük zəfəri ilə yekunlaşan 44 günlük Vətən müharibəsindən geniş söhbət açaraq vətən övladlarının torpaqlarımızın işğaldan azad olunması yolunda böyük şücaət göstərərək qəhrəmancasına şəhid olduqlarını bildiriblər. Tədbirdə QMİ-nin Şirvan bölgəsi üzrə qazisi, Şamaxı Cümə məscidinin axundu Hacı Mirəhməd Mustafayev, rayon Ağsaqqallar Şurasının sədri Mayıl Alıcanov və şəhid atası Rza Nəbiyev çıxış edərək Şanlı Azərbaycan ordusunun hər bir əsgərinin mərdlik, şücaət göstərdiyini vurğulayaraq, silinməyəcək dərs verdiklərini qeyd ediblər.

Mərasimdə məktəb şagirdlərinin ifasında fləşmob və ədəbi-bədii kompazisiyalar nümayiş olunub. Tədbir "Qalib Azərbaycan xalqı", "Müzəffər Ali Baş Komandan", "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarları ilə yekunlaşıb. Həmçinin, Anım Günü şəhid İsaxan Qəniyev İsaman oğlunun adına yeni inşa olunan bulağın açılışı da olub.

***RƏFİQƏ HÜSEYNOVA***

## Vətən müharibəsi şəhidlərinin ailələri ziyarət edilib



Anım Günü ilə bağlı sentyabrın 27-də YAP Səbail rayon təşkilatının üzvləri Səbail rayonu Şəhid ailələrini evlərində ziyarət ediblər. SİA-nın xəbərinə görə, ziyarətdə YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev və rayon partiya təşkilatının fəalları iştirak ediblər.

Ziyarət çərçivəsində Şəhid Vüsal Həsənov və Şəhid Vüsal Teymurovun ailə üzvləri ilə görüş keçirilib, ailələrin gündəlik qayğıları öyrənilib. Şəhid ailələri üzvləri dövlətin, ölkə başçısı cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısını daima öz üzərlərində hiss etdiklərini bildirərək razılıqlarını ifadə ediblər və "Vətən sağ olsun!" deyərək qəhrəman övladları ilə qürur duyduqlarını bir daha vurğuladılar. Allah bütün Şəhidlərimizin ruhunu şad etsin! Amin.

***Rəfiqə***

## Zərdabda 27 sentyabr "Anım günü" ilə əlaqədar tədbirlər keçirildi

27 sentyabr "Anım günü" ilə əlaqədar Zərdab rayonunda keçirilən silsilə tədbirlər bu gün də davam etdirilib. Əvvəlcə rayon rəhbərliyi, millət vəkili Jalə Əliyeva, Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının bir qrup fəal üzvləri, şəhid ailələrinin üzvləri və Vətən müharibəsi iştirakçıları, hüquqmühafizə orqanlarının nümayəndələri tərəfindən Zərdab şəhərindəki Şəhidlərin xatirə parkında tikilib istifadəyə verilmiş abidə ziyarət olunmuş, önünə gül-çiçək dəstələri qoyulub. Sonra abidə önündə anım mərasimi keçirilib.





Anım mərasimində çıxış edən Zərdab rayon icra hakimiyyətinin başçısı Mərdan Camalzadə 44 günlük Vətən müharibəsi haqqında məlumat verib, Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzun müharibədə möhtəşəm qələbə qazanaraq, dünya hərb tarixinə yeni şanlı səhifələr yazdığını diqqətə çatdırıb.

Qeyd olunmuşdur ki, Vətən müharibəsində böyük, tarixi qələbənin qazanılmasına Zərdab rayonu da öz töhfəsini vermişdir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 28 sentyabr 2020-ci il tarixdə Azərbaycan Respublikası ərazisində qismən səfərbərlik elan etməsi barədə sərəncamına uyğun olaraq rayonumuzun 452 nəfər sakini Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Zərdab rayon bölməsində qeydiyyatdan keçərək Vətən müharibəsinə yola düşmüşlər. Bütün istiqamətlərdə gedən döyüşlərdə gənclərimiz böyük qəhrəmanlıq və şücaət nümayiş etdirmişlər. Bu müharibədə rayonumuz 8 şəhid vermiş, yüzlərlə yaralananlarımız olmuşdur. Azərbaycan Prezidentinin Sərəncamı ilə Vətən müharibəsində qəhrəmanlıq və şücaət göstərmiş yüzlərlə Zərdablı Azərbaycan Respublikasının müxtəlif orden və medalları ilə təltif edilmişlər. Şəhidlərimizin adı əbədiləşdirilərək küçələrə adları verilmiş, xatirələrinə abidələr ucaldılmış, bulaqlar tikilmiş və bu istiqamətdə işlər bu gün də davam etdirilir. Gəlmə kəndində şəhidlərin dəfn olunduğu məzarlıq yenidən qurulmuş, Şəhidlərin xatirə parkında 125 şəhidimizin fotoşəkilləri həkk olunmuş xatirə abidəsi quraşdırılmışdır.

Mərasimdə milli məclisin deputatı Jalə Əliyeva çıxış edərək bildirmişdir ki, düz bir il öncə, 27 sentyabr 2020-ci il tarixində təcavüzkar və işğalçı Ermənistanın növbəti qanlı təxribatı və fitnəkarlığına cavab olaraq, Ali Baş Komandan Cənab İlham Əliyev səhər saatlarında Rəşadətli Azərbaycan Ordusuna, Silahlı Qüvvələrimizə bütün cəbhə boyu əks-hücum, əks-həmlə əməliyyatına başlamaq, "Döyüş, vur!" əmri verdi. 27 sentyabr 2020-ci il tarixdə İkinci Vətən Müharibəsinin başlanması, Böyük Qələbə və Tarixi Zəfərə gedən yol kimi düşdü. Müharibənin elə ilk saatlarında Azərbaycan Prezidenti Azərbaycan Televiziyası (AzTV) vasitəsilə Azərbaycan xalqına tarixi müraciətini etdi. Ölkə Prezidenti birmənalı və qətiyyətli şəkildə mövqeyini ifadə etdi ki, biz haqq yolundayıq, bizim işimiz haqq işidir, biz zəfər çalacağıq! Prezident İlham Əliyevin tarixi müraciətindən bir neçə saat sonra yüzlərlə, minlərlə, on minlərlə Azərbaycan gənci, Vətən sevdalıları valideynləri ilə birlikdə Səfərbərlik xidmətlərinə axışdılar, ata-analar öz övladlarını sevinc göz yaşlarıyla, dualarıyla Vətənin, Qarabağın müdafiəsinə uğurladılar, yola saldılar.

Anım mərasimində şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları çıxış edərək şəhidlərin xatirəsinə göstərilən bu böyük diqqət və qayğıya görə Cənab Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildirmişlər.Sonra Gəlmə kənd qəbiristanlığında dəfn edilmiş şəhidlərin məzarları ziyarət olunmuşdur. Saat 12:00-da rayon ərazisində şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Rayon ərazisində şəhidlərin xatirəsinə ağacəkmə kampaniyası təşkil edilmiş, 500-dən çox müxtəlif növ ağaclar əkilmişdir. Daha sonra Zərdab rayonundan olan şəhidlərin ailələri ziyarət olunmuşdur.

***Zümrüd BAYRAMOVA***

# 44 günlük Zəfər tariximiz

## *Bizim "QARABAĞ AZƏRBAYCANDIR" kəlməsini Azərbaycan tarixinə əbədi həkk edən Liderimiz var*



**27 sentyabr 2020-ci ildə Azərbaycan xalqı, dövləti və ordusu elə bir tarix yazdı ki, bu, bütöv bir millətin ləyaqət rəmzinə, milli qeyrət nümunəsinə çevrildi. Biz yağı düşmənin üstümüzə atdığı ləkəni təmizlədik, biz qamətimizi düzəltdik, biz 30 ildir itirdiyimiz dəyərləri özümüzə qaytardıq, biz illərlə həsrətində olduğumuz torpaqlarımıza qovuşduq. Biz heç nəyi unutmadıq, unutmadıqca da möhkəmləndik, gücləndik və nəhayət, dünyanın illərdir göz yumduğu ədalətsizliyi özümüz təkbaşına aradan qaldırdıq. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən Azərbaycan xalqı 30 illik məhrumiyyətə cəmi 44 günə son qoydu. Tariximizdə yeni səhifə yazıldı. Vətən müharibəsi Azərbaycan xalqının Zəfər məramına, milli kimlik mücadiləsinə, torpaq və Vətən sevgisinə şahidlik etdi.**

Tarixi torpaqlarımızı 30 ildir işğal altında saxlayan Ermənistanın hərbi təxribatları müntəzəm xarakter alanda Azərbaycan cavab vermək məcburiyyətində qaldı. Şanlı aprel döyüşlərindən sonra dərs almayan Ermənistan rəhbərliyi ötən ilin iyul və avqust aylarında yenidən hərbi təxribatlara əl atanda yəqin düşünürmüş ki, bu, onlara itirilmiş ictimai nüfuzu qaytaracaq və yaxud Azərbaycan üzərində kiçik qalibiyyət belə onlara erməni cəmiyyətində lovğlanmaq üçün bir xeyli vaxt qazandıracaq. Amma bu dəfə onların fikirləşdiyi kimi olmadı, Vətən müharibəsi Ermənistanın siyasi konyukturasının bütün mənfur planlarını alt-üst etdi, 27 sentyabr tarixi onların dırnaqarası arzularının tükənən günü oldu. Azərbaycan xalqıöz Prezidentinin ətrafında sıx birləşməklə bütün dünyaya sübut etdi ki, Qarabağ millətimizin milli ləyaqət rəmzidi və Azərbaycan xalqı 30 ildə bir an da olsun Qarabağ arzusundan bir addım geri çəkilməyib. Prezident İlham Əliyevin həyata keçirdiyi millət quruculuğu prosesi ona gətirib çıxardı ki, Xalq-Prezident-Ordu birliyi qalib gəldi, düşmən 30 ildir işğal altında saxladığı torpaqlarımızdan qovuldu.

Vətən müharibəsi bir xalq kimi bizim gücümüzü göstərdi, Azərbaycanın bir dövlət kimi potensialını nümayiş etdirdi. Bu müharibədə Azərbaycan xalqı da, dövləti də Qarabağın işğaldan azad olunması ilə bağlı varqüvvəsini ortaya qoydu. Əsgər və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirdi, strateji yüksəklikləri götürərək daha əlverişli mövqelərə sahib oldu. Bütün dünya gördü ki, 30 il ərzində Ermənistan rəhbərliyi "güclü ordusu" haqqında uydurmalar ortalığa atanda, "yenilməz Ermənistan ordusu" barədə miflər yaradanda Azərbaycanda dünya standartlarına uyğun ordu yaradılıb və bu ordunun gücü döyüş meydanında göründü. Baxmayaraq ki, biz 30 il səbrlə gözləmişdik. Danışıqlar prosesinə sadiq qalmışdıq. Bütün bunlar münaqişənin dinc yolla, müharibəsiz həllinə hesablanmışdı və Azərbaycan hər dəfə status-kvonun dəyişdirilməsinin vacibliyini vurğulayanda məqsəd münaqişəsinin fəal hərbi əməliyyatlar mərhələsinə keçməsinin qarşısını almaq idi.Ancaq ermənilərin illərlə qoruyub saxladığı həmin status-kvo bir neçə günün içində darmadağın oldu. Təmas xətti yarıldı və rəşadətli Azərbaycan ordusu torpaqlarımızı düşmən tapdağından xilas etdi.

Prezident İlham Əliyev müharibənin gedişində dəfələrlə bəyan etdi ki, "dünyada heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq, biz qalib gəlirik, biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!".Bu əminlik 44 günlük müharibədən Azərbaycanın qalib ayrılmasını şərtləndirdi. Ermənistan bütün hərbi resurslarını itirdi, döyüşdə uduzduğunu görən düşmən xilas olmaq üçün bütün vasitələrə əl atdı. Dinc əhalini atəşə tutdu, gecə vaxtı yatan insanların başına ballistik bombalar yağdırdı. Azərbaycan isə onların cavabını döyüş meydanında verdi. 1992-ci ildə Xocalı soyqırımını törədəndə də düşmənin məqsədi dinc əhalini qırmaqla Azərbaycan xalqının ruhunu sındırmaq, onu psixoloji böhrana salmaq idi. Bu dəfə də bu mənfur plan alınmadı, Azərbaycan xalqı öz haqlı davasında axıra qədər getdi.

Prezident İlham Əliyev hər dəfə yeni kənd və şəhərlərimizin işğaldan azad olunması xəbərini xalqa çatdıranda bu, insanlarda qələbəyə böyük ümid yaradırdı. Hətta azad olunmuş ərazilərdə bütün infrastrukturun dağıdılması belə xalqımızın qələbə əzminə təsir etmədi, indi onlar səbirsizliklə doğma torpağa qayıdacaqları günü gözləyir. Prezident İlham Əliyev həmişə deyirdi ki, o, nəyi nə vaxt edəcəyini yaxşı bilir. Bir il öncə döyüş meydanında baş verənlər Azərbaycan Prezidentinin uzaqgörənliyini, onun hadisələrə fərqli yanaşma bacarığını ortaya qoydu. Bu, həm də xalqın öz liderinə sonsuz inamının, ona etimadının təntənəsi idi.

Vətən müharibəsi regional və qlobal miqyasda Azərbaycana dəstəyi də nümayiş etdirdi. Biz kimin kim olduğunu gördük və çoxları nəhayət, anladılar ki, Azərbaycanın ərazi bütövlüyü başqa ölkələrin ərazi bütövlüyü qədər əhəmiyyətli və önəmlidir. Azərbaycan Ermənistandan fərqli olaraq heç kimdən kömək istəmədi. O, yalnız öz gücünə arxalandı, dost və qardaş ölkələrin siyasi-mənəvi dəstəyi xalqımızın və dövlətimizin iradəsi ilə birləşib düşmənə sarsıdıcı zərbə vurdu. Bu da ondan irəli gəldi ki, Prezident İlham Əliyevin yürütdüyü xarici siyasətin əsas özəlliyi onun Azərbaycanın milli maraqlarını ehtiva etməsidir. Onun hakimiyyətdə olduğu illərdə ölkəmizin xarici siyasət kursunda yalnız bu prinsiplər üstünlük təşkil edib: Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, müstəqil siyasətə sadiq olmaq, heç vaxt heç kimdən asılı olmamaq, heç kimin qarşısında baş əyməmək, öz qürurumuzu qoruyub saxlamaq və ölkənin ərazi bütövlüyünü bərpa etmək. Və bu da nəticə: Azərbaycan 30 ildir məruz qaldığı təcavüzü aradan qaldırdı, döyüş meydanında olduğu kimi, diplomatiya arenasında da qalib gəldi.

Prezident İlham Əliyev vurğulayır ki, biz bu qələbəyə hər zaman hazırlaşırdıq. Dövlət başçısı bu sözləri deyəndə həm də ölkəmizin iqtisadi gücünü də nəzərdə tutur. Bu illər ərzində Azərbaycanda formalaşan iqtisadi potensial bizi bu qələbəyə addım-addım yaxınlaşdırdı. Bir vaxtlar "neftin pulları hara gedir" sualını verən bədxahlara 44 günlük Vətən müharibəsinin qalibiyyəti ən yaxşı cavab idi. Biz o pulları düşmənin başına yağış kimi yağan müasir silahlarda gördük. Biz o pulları Azərbaycanın güclü, bütün dünyanı mat qoyan samballı ordu quruculuğunda, Ali Baş Komandan İlham Əliyevin dünyanın 50 ən güclü ordusundan birinə çevirdiyi Azərbaycan Silahlı Qüvvələrinin rəşadətində, Vətən sevgisində gördük. Amma elə dəyərlər də var ki, onlar nə pulla alınır, nə də satılır. Bizim bu müharibədəki ən böyük üstünlüyümüz mənəvi bütövlüyümüz idi. Hakimiyyətdə olduğu dövrdə Azərbaycanda həm də millət quruculuğu prosesini həyata keçirən Prezident İlham Əliyev bizi mənən də qalib etdi. Biz bundan sonra başı dik, üzü ağ gəzəcəyik! Çünki biz qalib ölkənin vətəndaşlarıyıq. Bizim Qalib Ordumuz var! Bizim xalqın övladları - müstəqillik dövründə yetişən gənc nəsil tariximizi də, taleyimizi də ən ağır töhmətdən xilas edib, inanılmazı gerçəyə çevirib, bizə böyük Qələbəni yaşadıb!

Prezident İlham Əliyev savaşın gedişində millətin öndərliyini edərək elə bir tarix yazıb ki, bundan sonra Azərbaycanın gələcək inkişafı məhz həmin tarix üzərində bərqərar olacaq. Bundan sonra biz ölkəmizin gələcəyi ilə bağlı bütün planlarımıza parlaq Zəfərimizin rakursundan baxacağıq. Çünki Prezident ləyaqətli, qürurlu, heç kimdən asılı olmayan, heç kimin sözü ilə oturub durmayan xalq formulunun müəllifi kimi müasir Azərbaycanın unudulmaz salnaməsini yaradıb. Müharibənin ilk saatlarından həm də informasiya cəbhəsində üstünlüyü ələ alan dövlət başçısı az qala hər gün beynəlxalq media orqanlarına verdiyi müsahibələrdə haqlı davamızla yanaşı, Azərbaycanı da, xalqımızı da bütün dünyaya tanıdıb. Dünya bizim gücümüzü görüb. Dünya həm də Azərbaycan Prezidentini yenidən kəşf edib.

Prezident İlham Əliyev deyir ki, "Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular". Ona görə də bu gün tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin ordusu tarixi missiyanı şərəflə yerinə yetirdi, işğal edilmiş torpaqları düşməndən azad etdi. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Hadrut və Suqovuşan qəsəbələri, Şuşa şəhəri döyüşlə azad olundu. Hərb meydanında əldə edilən qələbə imkan verdi ki, Ağdam rayonu, eyni zamanda, Kəlbəcər və Laçın rayonları bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad edilsin. Bununla da Prezident İlham Əliyev minlərlə övladımızı itirməkdən xilas etdi.

İndi biz torpaqlarımıza Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti, milli şərəf lövhəmizibəzəyən igidlərin hesabına qayıdırıq. Ali Baş Komandanın bir sözünə minlər olub hərbi komissarlıqların önünə növbəyə düzülən, arxaya baxmadan, tərəddüd belə etmədən Vətəni qucaqlamağa gedən, silahına sarılıb canıyla-qanıyla "Qarabağ Azərbaycandır" hayqıran igidlərin sayəsində tarixi Zəfərə qovuşduq. Xalqımız öz şəhidlərini qürurla, "Vətən sağ olsun!" deyib qarşıladı, millət öz mənəvi dünyasının böyüklüyünü ortaya qoydu, bütöv vətən fəlsəfəsinə dəyərli tövhə verdi. Vətən uğrunda şəhid olan balasının tabutuna girən ananın, həyat yoldaşının nəşinə çiyin verən gənc qadının timsalında xalqın qeyrət hünəri kükrədi.

Prezident İlham Əliyev Hərbi Qənimətlər Parkının açılışında hərbçilərimizə xitabən dedi ki, siz öz qəhrəmanlığınızla xalqımızın üzünü ağ eləmisiniz! Bu, təkcə onların igidliyinə verilən qiymət deyildi. Prezident bununla həm də bundan sonra ictimai fikirdəki şəhid, qazi statusunu müəyyənləşdirdi. Qazilərimizin sağlamlıq durumlarının hər zaman nəzarətdə saxlanması, şəhid ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı dövlət siyasəti yeni müstəviyə qədəm qoydu. Dövlət qurumları, ictimai-siyasi təşkilatlar, qeyri-hökumət təşkilatları, bütün cəmiyyət bu prosesə cəlb olundu, bu məsələ milli həmrəylik səviyyəsinə qaldırıldı.

İşğaldan azad olunmuş torpaqlarımızdakı mənzərə ürək dağlayır. Düşmən hər şeyi dağıdıb, Azərbaycan xalqının malını, mülkünü talayıb aparıb, daş daş üstündə qalmayıb. Onlar ən çirkin üsullara əl atıblar. Xalqımızın dini-mənəvi dəyərlərini təhqir ediblər. İşğal dövründə məscidlərimizi donuz tövləsinə çeviriblər. Düşünürəm ki, bu, yalnız dini fərqlilik məsələsi deyil. Bu, həm də əxlaq məsələsidir. Əxlaqı süqut etmiş bir millətin özgə yadigarlarına xain xislətinin təzahürü, daha gözəli, daha mükəmməli həzm edə bilməmək küdurətidir. Bu, təkcə Azərbaycan məsələsi də deyil, bu, ermənilərin həm də İslama, müsəlman dünyasına münasibətidir. Ona görə də Azərbaycan Prezidenti işğaldan azad edilmiş torpaqlardan dünyaya insanlıq və sülh mesajı verəndə bu, 30 ildir dini-mənəvi dəyərlərimizə qarşı ermənilərin törətdiyi vandalizmə susan Qərbin islamafob dairələrinə tutarlı cavab idi. Çünki prezident ermənilərin dağıtdığı, təhqir etdiyi məscidləri ziyarət edirdi. Bu, alicənablıq idi! Bu, keçmişə və mənəvi dəyərlərə sayqıdan qanynaqlanırdı. Və təbii ki, bu, Ağdamda salamat qalan yeganə tikilinin - tarixi məscidin qarşısında bütün dünyaya ünvanlanan ibrət dərsi idi.

İndi Ermənistanda baş verənlər ilk növbədə ölkənin dövlətçilik əsaslarını sarsıdıb və onun yenidən bərpası heç də effektli alınmayacaq. Təbii ki, vəziyyəti bu yerə gətirib çıxaran səbəb 30 ildə Ermənistana rəhbərlik edənlərin yürütdüyü siyasətdir. Qarabağın işğalı fonunda xalqın etibarından sui-istifadə edərək onu yalançı vədlərə inandıranların müharibədəki rüsvayçılığı nəhayət ki, Ermənistan cəmiyyətini acı reallıqla üz-üzə qoyub. Bu ölkənin yürütdüyü işğal siyasəti nəticəsində ölkə bütövlükdə müstəqillik dayaqlarını itirib və müstəmləkəyə çevrilib.

Görün, bu 30 ildə kimlər bizimlə mübarizə aparıb. Mədəniyyətə xor baxan mədəniyyətsizlər, dini əlində bayraq edən dinsizlər, oğrular və uşaq qatilləri. Azərbaycan ordusunun qarşısında diz çökən həmin qatillər öz acıqlarını Kəlbəcərin meşələrindən çıxdı, meşə zolaqlarını yandırdı, ağacları kütləvi sürətdə qıraraq ekologiyaya zərər verdi. Əsrlik təbiət abidələrini, ekosferanı qəsdən məhvə məruz qoydu. Ermənilər bu yerlərin əzəli sakinləri olan azərbaycanlıların əlindən zorla aldıqları evlərə od vuraraq yandırmaqlarının isə yalnız bir adı vardı: qəbilə təfəkkürlü canlıların barbar düşüncə tərzi... Amma unutmuşdular ki, millətimiz üçün ev-eşiyin heç bir əhəmiyyəti yoxdur, bizə doğma torpağımız lazımdır və bu torpaqlar bizə yenidən qurub yaratmaq, bəxtiyar olmaq, onun köksünü xan çinarlarla bəzəmək üçün lazımdır.

Prezident İlham Əliyev "bayrağımızı bir gün Qarabağa sancacağıq" deyəndə düşmən elə bilirdi ki, bu, sadəcə bir sözdü. Amma onlar anlamadı ki, bu, xalqın hüzurunda verilən sözdü, içilən anddı. Bu əhdi yerinə yetirmək bu dövrün insanlarının, qəhrəmanlarının nəsibi oldu. Deməli, millət həm də ümmət kimi birlikdə olanda güclüdür. Xalqımızın inamı və imanı birləşib düşmənə elə sarsıdıcı zərbə vurdu ki, bir də çətin özlərinə gələrlər. Bir vaxtlar müqəddəs Şuşa şəhərində qastrola gedibmiş kimi diskoteka təşkil edən Paşinyanın rəqsi, onun "Qarabağ Ermənistandır" ifadəsi dünya erməniliyinin böyük fəlakətinə çevriləndə artıq Cıdır düzünü Vətən müharibəsində qalib gələn Azərbaycan ordusunun əsgərlərinin əzəmətli rəqsi əvəzləmişdi.

Bəzən deyirlər ki, xoşbəxtlik an məsələsidir, o, heç vaxt əbədi olmur. Amma bizim qəhraman ordumuz Vətən müharibəsindəki parlaq qələbəmizin tacı olan Şuşanı əsil sahiblərinə qaytarmaqla xalqımızı əbədi xoşbəxtliyinə qovuşdurdu. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı oldu. 30 illik işğal dövründə millətin taleyinə, xalqın qədərinə çevrilən Şuşa bir an da olsun unudulmadı. Bu illər ərzində insanlar, bütün xalq, böyüyündən kiçiyinə qədər hamı Şuşa deyib durdu. Biz mənəvi dünyamızın ən özəl yerini, xalqın and yerini bir an da olsun unutmadıq. Və Vətən müharibəsindəki qələbəmiz bir daha sübut etdi ki, torpağı arzulamaq, onu sevmək ancaq bu qədər olarmış. Çünki Şuşanı işğaldan qurtaranlar əslində, xalqın ruhunu, mənəvi dünyasını da əsarətdən xilas etdilər. Onlar 30 il öncə ayağı yalın, başı açıq öz torpaqlarından qovulan, hər şeyləri əlindən alınan atalarının qisasını aldılar. Onlar hicranla vüsal arasındakı o dərin uçurumu bir göz qırpımında keçərək 30 ilin sürgünlüyünə son qoydular.

İndi bu şəhərdə həyata keçirilən abadlıq-quruculuq işləri Şuşanı yenidən öz əvvəlki görkəminə qaytarır. Prezident hər Şuşaya gedəndə hər şeyi öz əvvəlki yerinə qoyur, bununla onu həm də öz əvvəlki simasına qovuşdurur. Şuşanı xalqın milli-mədəni sərvətinə çevirən ulu öndər Heydər Əliyevdən qalan quruculuq ənənəsi bu gün daha təsirli formada davam edir. Artıq "Xarı bülbül" festivalı, Vaqif poeziya günləri uzun fasilədən sonra bərpa olunub, Üzeyir bəyin adını daşıyan musiqi günləri artıq Şuşada keçirilir, dahi Bülbülün ev muzeyi öz qonaqlarını qarşılayır. Şuşada aparılan sürtəli quruculuq işləri bizi müqəddəs hədəflərimizə daha da yaxınlaşıdırır. O, hədəflər arasında uzun illərdir blokada şəratində yaşayan Naxçıvan Muxtar Respublikasının tarixi Vətənlə birləşdirilməsi də var. Zəngəzur dəhlizinin işə düşməsini qarşıya mühüm məqsəd kimi qoyan Prezident İlham Əliyev bu hədəfə çatmaq üçün var gücü ilə çalışır. İşğaldan azad edilmiş digər torpaqlarımızda başlayan infrastruktur işlərimüasir Azərbaycanın gücünə güc qatır.

Vətən müharibəsi Prezident İlham Əliyevin 2003-cü ildə prezident seçkiləri zamanı xalqa verdiyi vədlərin real həyatda öz təsdiqini tapmasıdır. Bu, həm də Heydər Əliyev yoludur və bu yolun uğuru ondadır ki, onu İlham Əliyev kimi təcrübəli dövlət xadimi gedir. 1993-cü ildə Azərbaycan dərin böhranlar içərisində dağılmaq və məhv olmaq təhlükəsi ilə üzləşəndə Heydər Əliyev Azərbaycan üçün kim idisə indi həmin missiyanı Prezident İlham Əliyev yerinə yetirir. Ona görə də bu gün qüruru kədərindən böyük olan xalqımızın düşmənlə döyüşdə göstərdiyi misilsiz qəhrəmanlıq heç vaxt unudulmayacaq. Bu, öz hüququnu, mənliyini heç nəyə qurban verməyən, ədalətsizliklə heç vaxt barışmayan, öz torpağını namusu qədər müqəddəs bilən bir millətin şərəf məsələsi idi. Millət şərəfinə qovuşub.

Artıq həyatımızda yeni dövr başlayıb. Bu dövrün özünəməxsus özəllikləri var. Biz Azərbaycanın beynəlxalq münasibətlərdə yürütdüyü siyasətin yeni konturlarını görürürük. İkitərəfli və çoxtərəfli əlaqələrdə yeni əməkdaşlıq parametrləri müşahidə olunur. Ən önəmli məqam isə ondan ibarətdir ki, dünya bu müharibənin gedişində Azərbaycanı yenidən kəşf edib, ölkəmiz haqqında, onun malik olduğu güc barədə beynəlxalq birlikdə dəqiq təsəvvür formalaşıb. Onlar görürlər ki, müstəqillik tarixi dövründə inanılmaz dərəcədə güclənən Azərbaycanla heç bir halda təhdid dilində danışmaq olmaz. Çünki onun xalqın maraqlarını bütün dəyərlərdən üstün tutan, ölkənin bütün potensialını Vətən naminə səfərbər edən, "Qarabağ Azərbaycandır" kəlməsini Azərbaycan tarixinə əbədi həkk edən Lideri var.

**ARİF ALIŞANOV**

# Şəhid leytenantın anım mərasimi keçirilib



**Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhid olmuş leytenant Zaur Vaqif oğlu Hüseynovun birinci ildönümü ilə bağlı anım mərasimi keçirilib. Anım mərasimi şəhidin anadan olduğu Hişkədərə kəndində baş tutub.**

Zaur Hüseynov 24 iyun 1995 - ci ildə Masallı rayonunun Hişkədərə kəndində anadan olmuşdur. Kənd tam orta məktəbinin 9-cu sinfini, C.Naxçıvanski adına hərbi liseyini bitirmişdir. İki il əvvəl Hərbi Akademiyanı bitirib "N" saylı hərbi hissədə xidmətə başlamışdı.

Sentyabrın 27-də səhər saatlarında Ermənistan yaraqlıları Azərbaycanın Füzuli, Cəbrayıl, Tərtər, Ağdərə istiqamətlərində Azərbaycan ordusunun mövqelərinə, kəndlərimizə iriçaplı silahlardan, ağır artilleriyadan istifadə edərək, genişmiqyaslı təxribatlara yol açmışlar. Azərbaycan silahlı qüvvələri təxribatın qarşısını almaq üçün əks-hücumla düşmənə ağır zərbələr endirmişlər. İgid zabitimiz idarə etdiyi BMP-si ilə düşmənin bir neçə müdafiə istehkamını məhv etmişdir.





2020-ci il sentyabrın 27-də, Füzuli istiqamətində gedən şiddətli döyüşlərin birində, Azərbaycan Silahlı Qüvvələri tərəfindən ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan müharibədə, elə sentyabrın 27-də qəhrəmancasına şəhid olmuşdur. Sentyabrın 28-də şəhid Zaur Hüseynovun nəşi doğma kəndində torpağa tapşırılmışdır. Ailəli idi. Bir qız uşağı yadigar qaldı...

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş qapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən Masallı rayonunun Hişkədərə kəndindən olan Vətən müharibəsinin şəhidi leytenant Hüseynov Zaur Vaqif oğlu ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Qeyd edək ki, anım mərasimində Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov və aparatı, hüquq-mühafizə orqanlarının rəhbərləri,cMilli Məclisin deputatları Məşhur Məmmədov və Anar İsgəndərov, şəhid ailələri, qazilər, müəssisə və təşkilatlar və s. iştirak ediblər. Anım mərasimində 44 günlük Vətən müharibəsində və Birinci Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin ruhuna dualar oxunub, onlara Allahdan rəhmət dilənib.

Mərasində ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri vəhşiliklərdən, 44 gün ərzində Ali Baş Komandanın və Müzəffər Azərbaycan ordusunun əldə etdiyi qələbədən danışılıb. Bildirilib ki, Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqların azad edilməsi məqsədilə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsinə başlayıb. Mərasimin axırında Hişkədərə kənd qəbiristanında uyuyan şəhid Z. Hüseynovun məzarı ziarət olunub.

***ƏLİHÜSEYN ŞÜKÜROV***

# YAP Sumqayıt şəhər təşkilatının nümayəndələri Şəhidlər xiyabanını ziyarət edib

Sentyabrın 27-də Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının nümayəndələri Şəhidlər xiyabanında olub və şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad ediblər. SİA-nın məlumatına görə, mərasimdə YAP İdarə Heyyətinin üzvü, YAP Sumqayıt şəhər təşkilatının sədrinin səlahiyyətlərini icra edən Ramiz Hüseynov, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Sumqayıt nümayəndəliyinin direktoru Sevinc Qasımova, Gənclər Birliyinin üzvləri və siyasi fəallar iştirak ediblər.





Mərasim iştirakçıları əvvəlcə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsini bir dəqiqəlik sükutla yad edib, məzarları üzərinə qərənfillər düzüblər.



Qeyd edək ki, bu gün Azərbaycanın Vətən müharibəsinə başlamasından 1 il ötür. Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqların azad edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsinə başlayıb. 2020-ci ilin sentyabr ayından başlayan əks-hücum nəticəsində Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44gün ərzində ölkənin ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüquqü bərpa etmişdir. Vətən müharibəsində qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilməsi qərara alınıb.

Xalqımız hər zaman 27 Sentyabr - Anım Günü böyük ehtiram və hörmətlə yad edəcək, öz canı-qanı bahasına Şanlı Zəfər tariximizi yazan şəhidlərimizin əziz xatirəsinidaim qəlbində yaşadacaqdır!

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**
**Şəhidlərimizin ruhu qarşısında baş əyirik!**

# YAP Samux rayon təşkilatında qazilər və müharibə veteranları ilə görüş keçirilib

**İkinci Qarabağ müharibəsinin ildönümü ilə əlaqədar olaraq YAP Samux rayon təşkilatında 44 günlük Vətən müharibəsində şanlı zəfər yolu keçən, Azərbaycanın ərazi bütövlüyü və torpaqlarımızın işğaldan azad olunması uğrunda qəhrəmanlıqla döyüşən qazi və müharibə iştirakçıları ilə görüş keçirilib. SİA-nın məlumatına görə, görüşdə qazilər Həsənov Vüqar Asim oğlu, Zamanov Teymur Rafiq oğlu, Abbasov Amil Yaşar oğlu, eləcə də müharibə veteranları Qurbanov Müharib Maarif oğlu, Məmmədzadə Əkbər Xaliq oğlu və Həsənov Qurban Həsən oğlu iştirak ediblər.**

Əvvəlcə, Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın ruhu bir dəqiqəlik sükutla yad olunub. Sonra YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı şanlı Qələbədən, bu zəfərin əldə edilməsində Azərbaycan gəncliyinin rolundan bəhs edib.

Şəhid ailələrinə və qazilərimizə göstərilən diqqət və qayğıdan danışan Gündüz Bayramov qeyd edib ki, Yeni Azərbaycan Partiyası daima şəhid ailələrinin və qazilərimizin yanındadır. Görüşdə çıxış edən qazilər və müharibə veteranları onlara göstərilən diqqət və qayğı üçün təşəkkür ediblər. Onlar müharibə ilə bağlı xatirələrindən, göstərdikləri igidliklərdən bəhs ediblər. Vurğulanıb ki, artıq Azərbaycan xalqı qalib və məğrur xalqdır.



Daha spnra çıxış edən fəal gənclər 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan qələbədə Azərbaycan Ordusunun rəşadət və igidliyindən, xalqımızın ordumuza verdiyi misilsiz dəstəkdən, xalq-lider-ordu birliyindən ətraflı danışıblar.

# 44 günlük vətən müharibəsi zəfər və şərəf tariximizdir!

*Ağcabədidə Anım Günü ilə əlaqədar tədbirlər davam edir*







27 Sentyabr - Anım Günü ilə əlaqədar YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov, bir qrup YAP fəalı Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı qüvvələrinin kəşfiyyat komandiri şəhid kapitan Samir Mikayıllının ailəsini ziyarət edib. Əvvəlcə Ağcabədi rayonunun Salmanbəyli kəndində şəhid Samir Mikayıllının adını daşıyan “Xatirə” parkındakı abidəsi, həmçinin Vətən uğrunda canlarından keçmiş digər kənd şəhidlərinin abidəsi qonaqlar, şəhidin ailə üzvləri və bir qrup kənd əhalisinin iştirakı ilə ziyarət olunmuş, abidə önünə tər çiçəklər düzülüb.

Sonra tədbir iştirakçıları Samir Mikayıllının doğulub boya-başa çatdığı evə gedərək, ailə üzvləri və yaxın qohumları ilə görüşüblər. Görüşdə YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov 30 ilə yaxın düşmən işğalı altında qalan torpağımızın Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən azad edilməsində əsl qəhrəmanlıq göstərmiş döyüşçülərimizin şücaətindən, bu yolda canından keçmiş qəhrəman gənclərimizin, o cümlədən, şəhid Kapitan Samir Mikayıllı kimi minlərlə hərbçinin canı, qazilərin isə qanı bahasına böyük qələbənin əldə edildiyini qeyd etmiş, bütün şəhidlərə və Kapitan Samir Mikayıllıya Allahdan rəhmət, qazilərə isə şəfa diləmişdir.

Şəhidin yaxın qohumu, kənd ağsaqqalı Heydər Məmmədov, şəhidin atası Sabir Sultanov, anası Əziz Babayeva şəhidləri yaddan çıxarmadıqlarına, onların xatirəsini daim ehtiramla yad etdikləri üçün öz minnətdarlığını bildiribdir.Sabir Sultanov onu da qeyd edib ki, övlad itirsək də, torpaqlarımızın işğaldan azad edilməsi bizə böyük təsəllidir. Bir şəhid ailəsi kimi Dövlətin qayğısını daim üzərimizdə hiss edirik. Bu diqqətə görə, Ali Baş Komandan, ölkə Prezidenti Cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyeva minnətdarlıqlarını bildiriblər. Vurğulanıb ki, mənfur ermənilər 10 noyabr sazişinin müddəalarına əməl etməsə, bəzi dövlətlərin dəstəyinə arxalanaraq təxribatlarını davam etdirsə “dəmir yumruq” başları üzərinə enməyə hazırdır. Əgər onlar yenidən bizi müharibəyə sövq etsələr, şəhid oğlumuz Samirin 2 qardaşı da döyüşə atılmağa hazırdır.

**ZÜMRÜD BAYRAMOVA**

# YAP Suraxanı rayon təşkilatı şəhid məzarlarını ziyarət edib

27 sentyabr - Anım Günü ilə əlaqədar Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının nümayəndələri tərəfindən partiya fəalları və rayon ictimaiyyətinin nümayəndələri ilə birgə rayon sakini olmuş şəhidlərin məzarları ziyarət edilib, önünə gül dəstələri düzülüb, onların əziz xatirəsi ehtiramla yad edilərək, dualar oxunub.

Suraxanı rayonu Zığ qəsəbəsi Dədə Qorqud qəbiristanlığındakı Şəhidlər Xiyabanında şəhidlərimiz anılıb. Tədbir Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş



Komandan Cənab İlham Əliyevin Anım Günü ilə əlaqədar xalqa müraciətinin canlı olaraq dinlənilməsi, Dövlət Himninin səsləndirilməsi və Vətən Müharibəsi şəhidlərinin xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi ilə başlanmışdır.

27 sentyabr - Anım Günü ilə əlaqədar keçirilən mərasimdə Suraxanı rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov, YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, Milli Məclisin deputatları Afət Həsənova, Sevinc Fətəliyeva, Etibar Əliyev və digər rəsmi şəxslər, şəhid ailələrinin üzvləri, qazilər və rayon sakinləri iştirak ediblər. Suraxanı rayonu Zığ qəsəbəsi Dədə Qorqud qəbiristanlığındakı Şəhidlər Xiyabanında baş tutmuş mərasimin sonunda Vətən Müharibəsi şəhidlərinin əziz xatirəsinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib.





**ZÜMRÜD BAYRAMOVA**



# Qubada ağacəkmə aksiyası keçirilib

27 Sentyabr Anım Günü ilə əlaqədar Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov, aparat işçiləri və partiya fəalları YAP Quba rayon təşkilatının inzibati binasının ətrafında ağacəkmə aksiyasını həyata keçiriblər. Bu aksiya ərazi ilk partiya təşkilatları tərəfindən yerlərdə də həyata keçirilməkdədir. Aksiyanın keçirilməsində məqsəd şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi, ekoloji tarazlığın bərpasına, ətraf mühitin qorunmasına kömək məqsədi daşıyır. Şəhidlərimizin, qazilərimizin keçdikləri şərəfli ömür yolu gələcək nəsillərə örnəkdir. Torpaqlarımızın azadlığı, Vətənimizin düşmən tapdağından azad olunması uğrunda canından keçən Azərbaycanın mərd oğulları - şəhidlərimiz, qazilərimiz bizim qürur mənbəyimizdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onlar daim bizim qəlbimizdə yaşayacaqdır.

**NƏZAKƏT ƏLƏDDİNQIZI**

# Samuxda Anım Günü ilə əlaqədar ağacəkmə aksiyası keçirilib





Samuxda 27 sentyabr - Anım Günü ilə əlaqədar ağacəkmə aksiyası keçirilib. Ekoloji aksiya çərçivəsində “Şəhidlər kompleksi” ziyarət edilib. Tədbir iştirakçıları ağacəkmə aksiyası çərçivəsində hər bir şəhidin adına ağaclar əkiblər. SİA-nın məlumatına görə, tədbirdə Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev, Azərbaycan Respublikası Milli Məclisinin Deputatı Nizami Səfərov, YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov, hüquq-mühafizə orqanlarının əməkdaşları, şəhidlərin ailəsi, yaxınları döyüş yoldaşları iştirak ediblər.

Mərasimdə çıxış edənlər Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qırx dörd gündə qazanılan qələbənin tarixi əhəmiyyətindən, Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin, eləcə də sağlamlıqlarını itirən qazilərimizin keçdikləri şərəfli döyüş yollarından danışıblar. Vurğulayıblar ki, bu döyüşlərdə samuxlu əsgər və zabitlər də Vətənə layiq qəhraman oğullar kimi ad qazanıblar.

# Şəhidlərimiz heç vaxt unudulmayacaq!

*YAP Ağdaş rayon təşkilatı Anım tədbiri keçirib*



**YAP Ağdaş rayon təşkilatı Ağdaş Dövlət Humanitar Kolleci ərazi ilk partiya təşkilatı tərəfindən kollecdə Anım Günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə YAP İdarə Heyətinin üzvü, millət vəkili Cavid Osmanov və millət vəkili Məzahir Əfəndiyev iştirak edib. Kollecin həyətindəki şəhidlərin xatirəsinə həsr edilmiş guşənin qarşısında keçirilən tədbirdə ərazi bütövlüyümüzün təmin olunması yolunda canlarını fəda etmiş şəhidlərimiz bir dəqiqəlik sükutla yad edilib.**



Tədbiri giriş sözü ilə açan kollecin direktoru, ilk partiya təşkilatının sədri Namiq Mehdiyev Prezident İlham Əliyevin 27 sentyabr - Vətən müharibəsinin başlandığı günün Azərbaycan Respublikasında Anım Günü kimi qeyd olunmasına dair Sərəncamının şəhid ruhlarına, şəhidlərin doğmalarına ali ehtiramın göstəricisi olduğunu söyləyib. Bildirilib ki, bir il öncə qəhrəman Ordumuz düşmənin növbəti təxribatını dəf etmək məqsədilə Ermənistan silahlı qüvvələrinə qarşı əks-hücuma keçdi. Bu hücum düşmənin diz çökməsi və 30 ildir ki, işğal altında saxlanılan torpaqlarımızın azad olunması ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı, Azərbaycan Ordusu Ermənistanı kapitulyasiya aktını imzalamağa məcbur etdi.

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, YAP Ağdaş rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən, millət vəkili Cavid Osmanov heç bir qələbənin asanlıqla əldə olunmadığını, torpaqlarımızın düşmən işğalından Vətən övladlarının qanları, canları bahasına azad edildiyini diqqətə çatdırıb. Millət vəkili Vətən müharibəsində 32 ağdaşlının şəhidlik zirvəsinə ucaldığını qeyd edib. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən şəhid ailələrinə, qazilərə, o cümlədən Vətən müharibəsi iştirakçılarına göstərilən diqqət və qayğının ən yüksək səviyyədə olduğunu, onların sosial məsələlərinə daim diqqət və həssaslıqla yanaşıldığını, bu qayğının hər zaman davam edəcəyini bildirib.

Çıxış edən millət vəkili Məzahir Əfəndiyev və digərləri Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması uğrunda Vətən müharibəsində şəhid olanlara Allahdan rəhmət, qazilərimizə şəfa diləyib. Belə qəhrəman övladlar yetişdirdikləri üçün ailələrinə minnətdarlığını bildirərək, qazanılmış Zəfərdə misilsiz rolu olan şəhidlərimizin heç vaxt unudulmayacağını, dövlətin, xalqın daim onların yanında olacağını vurğulayıb. Sonda tədbir iştirakçıları şəhidlərin xatirəsinə həsr edilmiş guşənin qarşısına tər gül dəstələri düzüblər.

**ZÜMRÜD BAYRAMOVA**

## Ağcabədidə anım günü keçirilib





Ağcabədidə 27 sentyabr tarixində çox möhtəşəm bir anım günü keçirilib. SİA xəbər verir ki, tədbirdə əsgərlər, zabitlər, şəhid valideynləri, şəhid övladları və digər şəxslər iştirak ediblər. Tədbirdə həmçinin rayonun rəhbərləri, rayonun icra başçısı Rafil Hüseynov, hüquq mühafizə orqanının rəhbərləri, hərbi hissənin əməkdaşları, ziyalılar, birinci Qarabağ müharibəsinin veteranları, ikinci Qarabağ müharibəsinin qazirləri, ağsaqqallar, din xadimləri, ümumiyyətlə, bir sıra vətəndaşlar da iştirak ediblər.

Tədbirdə, Ağcabədinin deputatı, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev çıxış edib. Komitə sədri öz çıxışı zamanı dövlət rəhbərinin göstərdiyi qayğıdan, qələbənin möhtəşəmliyindən, əldə etdiyimiz qələbənin tarixiliyindən danışıb. Sonra şəhidlərin məzarına gül dəstələri qoyulub, xatirə şəkilləri çəkilib, ardınca isə xeyli ağac əkilib.

Bundan sonra döyüşlərdə şəhid olmuş iki şəhidin ailələrinə baş çəkilib. Onların vəziyyəti ilə maraqlanılıb.

***İnam Hacıyev***

## YAP Oğuz rayon təşkilatının nümayəndələri şəhidlərimizin məzarını ziyarət ediblər



Vətən müharibəsi Şəhidlərinin anım günü ilə əlaqədar bütün ölkə ərazisində olduğu kimi, Oğuz rayonunda da genişmiqyaslı anım tədbirləri keçirilib. YAP Oğuz rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Saleh Məhərrəmov və təşkilatın əməkdaşları Oğuz rayon Şəhidlər xiyabanında və Xaçmaz kənd Şəhidliyində uyuyan Şəhidlərimizin məzarını ziyarət edib, əziz ruhlarını ehtiramla yad ediblər. Uca Allahdan Vətənimizin uğrunda Şəhid olmuş bütün qəhrəman igidlərimizə rəhmət diləyirik.



***Zümrüd***

# İsmayıllıda şəhidlərin xatirəsi anılıb

**Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatının nümayəndələri rayonun Şəhidlər xiyabanında Vətən müharibəsi şəhidlərinin əziz xatirəsini dərin ehtiramla yad ediblər. Anım Günü iştirakçıları əvvəlcə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsini bir dəqiqəlik sükutla yad edib, məzarları üzərinə əklil və tər qərənfillər düzüblər.**

Tədbirdə RİH başçısı Nahid Bağırov çıxış edərək, 44 günlük müharibədə iştirak edərək şücaət göstərmiş, qəhramanlıqla həlak olmuş və ya sağlamlığını itirmiş hər bir vətəndaşın daim dövlət qayğısı ilə əhatə olunduğunu və bundan sonra da olunacağını bildirib. Daha sonra rayon rəhbərliyinin iştirakı ilə Anım Günü münasibətilə ağacəkmə aksiyası təşkil edilib.Tədbir şəhidlərin xatirəsinə hazırlanmış flaşmob və İsmayıllı məktəblilərinin hazırladığı kompozisiya ilə sona çatıb.

**ZÜMRÜD BAYRAMOVA**









# Arnold Stepanyan: "Revanşizmlə çox uzağa getmək olmayacaq"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

**"Ermənilər və azərbaycanlılar ortaq bir dil tapsalar, nəinki uşaqlarımız daha yaxşı yaşayacaq, elə bizim də yaxşı yaşamaq üçün vaxtımız olacaq"**



Gürcüstanlı politoloq Arnold Stepanyan "Caliber" analitik mərkəzinə müsahibəsində müharibədən sonrakı vəziyyətlə, həmçinin iki ölkənin və iki xalqın münasibətləri və gələcək taleyi ilə bağlı maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Sizcə, 44 günlük müharibə Ermənistan-Azərbaycan münaqişəsinə son qoydumu?***

- Düşünürəm ki, ermənilərlə azərbaycanlılar arasında müharibənin başlanğıcı və sonu bizdən çox asılı deyil. Təəssüf ki, hər iki ölkə daha çox böyük dövlətlərin təsirindədir. Amma əməkdaşlıq üçün stimullar yaradılacağı təqdirdə xalqlarımız arasında sülh üçün daha çox perspektivlər olacaq. Onları nə qədər tez yaratsaq, bizim üçün bir o qədər yaxşıdır. Bu halda gələcəkdə hərbi əməliyyatların yenidən başlamaması ehtimalı daha çox olacaq. Bu təşəbbüslər ticarət, iqtisadi, humanitar, sosial ola bilər. Mühüm olan odur ki, müharibədən sonrakı dövrdə hər iki ölkənin rəhbərliyindən gələn bu siqnallar sözdə deyil, praktikada düzgün istifadə olunsun.

***- Ermənilər və azərbaycanlılar sülh şəraitində yaşaya biləcəklərmi? Tarix göstərir ki, onlar yaxşı işlər görə bilirlər və hətta bu, heç də pis alınmır. Bunun üçün nə etmək lazımdır?***

- Dünyada bütün xalqlar mehriban yaşaya bilər. Sülh içində yaşaya bilməyən millət yoxdur. Fransa və Almaniya nümunəsi bunu açıq şəkildə sübut edir. Bir çox başqa misal çəkmək olar, xüsusilə də etnik ermənilərin və azərbaycanlıların sülh içində yaşadığı Gürcüstan. Bir-birimizlə dostuq, bir-birimizdən narahatıq və bir-birimizin uğurlarına sevinirik. Buradakı böyük şəkil budur. Əlbəttə ki, istisnalar var, amma ümumi mənzərə aşağıdakı kimidir. Və çox şadam ki, iki Qarabağ müharibəsi aramızda ciddi bir sıxıntı yarada bilmədi. Burada əlimizdə olanı qoruyub saxlamışıq. Hələ də ümumi evliliklərimiz var və aktiv dostuq, azərbaycanlılar arasında çoxlu dostlarım var. Münasibətlərimizdə heç bir problemimiz yoxdur və olmayacaq.

***- Ermənistan üçün regional kommunikasiyaların blokdan çıxarılması sərfəlidirmi?***

- Deyərdim ki, kommunikasiyaların blokdan çıxarılması hər kəs üçün faydalıdır. Ermənistan, Azərbaycan və ətrafdakı bütün ölkələr üçün faydalıdır, çünki bu halda bölgənin mirvari olmaq şansı çox yüksəkdir. Ən azından bölgə tranzit funksiyaları əldə edə bilər. Təbii ki, bu, dərhal iqtisadi vəziyyətə və heç kimin savaşmaq istəməməsinə müsbət təsir göstərəcək. Sabitlik indeksi artacaq, bölgəyə pul qoyulacaq, çoxlu xarici sərmayələr olacaq, iqtisadi cənnət yaradıla bilər. Bu vəziyyət hər kəs üçün faydalı olmalıdır. Bölgəmizdə bütün ölkələr bir-birinə bağlıdır. Bizim nəsil stress içində yaşayır, bunun səbəbi daimi müharibə gözləməsidir. Və əgər ermənilər və azərbaycanlılar ortaq bir dil tapsalar, nəinki uşaqlarımız daha yaxşı yaşayacaq, həm də bizim də yaxşı yaşamaq üçün vaxtımız olacaq.

***- 30 ilə yaxındır ki, Azərbaycanın Qarabağ və ona bitişik digər rayonları Ermənistan Silahlı Qüvvələrinin nəzarətində idi. Bu, erməni xalqına nə verdi?***

- Baxır hansı erməni xalqına və harada. Qarabağda bu, erməni xalqına evlərində yaşamaq üçün qaldıqlarını və heç kimin onları qovmadığını göstərdi. Azərbaycanlıların Qarabağdan qovulması çox pisdir. Bu, faciədir, mən həmişə bu barədə danışmışam. Bir insanın evdə yaşaya bilməməsi pisdir. Evinizin xaricində yaşamaq çox pisdir, çünki yalnız bir həyatınız var.

Əgər Ermənistan Respublikasını nəzərdə tutursunuza, əlbəttə ki, bu, blokadaya gətirib çıxardı, iqtisadi imkanlar məhdud idi, inkişaf imkanları məhdud idi və indi də məhduddur. Ancaq əlavə edim ki, Zəngəzurdakı kiçik hissədə baryerlər var, hansı ki, İranı Ermənistanla birləşdirən yolları, Meqri-Qafan yolunu Ermənistanın mərkəzi hissəsi ilə birləşdirir. Düşünürəm ki, indi xoş niyyət göstərməyin vaxtıdır, bu jestlərə indi ehtiyac var. İnsanların bunun da mümkün olduğunu anlamağa başlaması üçün hərəkətlərə ehtiyac var. Düşünürəm ki, Gorus-Qafan yolunun bağlanması münaqişənin həllinə kömək etmir. Azərbaycan 44 günlük müharibədə qalib gəldiyindən, Bakının nəcib jestlər etməsi düzgün olardı.

Ermənistan hakimiyyətinin heç bir jest etməməsi başa düşülləndir. Bu arada Ermənistan Türkiyə ilə bağlı çox önəmli açıqlamalar verir. İndi Türkiyənin necə davranacağı çox vacibdir. Türkiyənin son iki həftə ərzində hansı müsbət addımlar atdığını artıq bilirəm. Belə davam edərsə, düşünürəm ki, münasibətlərin normallaşma şansı yalnız yaxın gələcəkdə artacaq.

Təbii ki, Ermənistan-Azərbaycan münasibətləri müəyyən qədər Rusiya ilə Türkiyə arasındakı münasibətlərin necə olacağı ilə də bağlıdır. Bölgədəki iqtisadi inkişaf tapmacasını həll edə biləcəyimiz və ya etməyəcəyimiz bundan asılıdır.

***- Ermənistandakı revanşist hissləri necə qiymətləndirirsiniz? Bundan kimlər faydalanır?***

- Ermənistanda revanşist hisslərin olması tamamilə aydın və məntiqlidir. Ancaq burada iki məqsəd var. Birincisi, intiqam almağa səmimiyyətlə inananlar müharibənin uduzulduğunu söyləyirlər, amma hesab 1:1-dir. İtirilmiş əraziləri geri qaytara biləcəklərini düşünürlər. Buna ürəkdən inanan insanlar var. Amma indiki hakimiyyəti aradan götürmək üçün bundan istifadə edən siyasətçilər kateqoriyası var. Lakin Ermənistanda keçirilən parlament seçkiləri buna nail ola bilmədiklərini göstərdi. Seçkilər az-çox ədalətli idi və müharibəni uduzan hazırkı baş nazirin seçkilərdə qalib gəldiyini göstərdi. Bu, əhalinin əksəriyyətinin münasibətini nümayiş etdirir. Daxili siyasi məqsədlərə çatmaq üçün revanşizmdən istifadə Ermənistanda qismən aktualdır, lakin siyasətçilərin özləri başa düşürlər ki, bununla çox da uzağa getmək olmayacaq.

Tərcümə - Elçin Bayramlı

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.

---

# Bütün bunların günahkarı təkcə Nikoldurmu



**Deyirlər, cox vaxt "qaçan da, elə onu qovan da Allahı çağırır". Niyə bu məsəli çəkirəm? ...Məsələ bundadır ki, bu gün ermənilər də 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu tərəfindən düçar olduqları məğlubiyyətin acısını yaşayırlar. Əslində, "özü yıxılan ağlamaz". Vaxtilə kimlərinsə qanadı altına sığınıb, Azərbaycana "meydan oxuyan" ermənilər gərək ki, nə vaxtsa onları gözləyən "qətl gününü" yaddan çıxarmayaydılar. İndi isə onlar yaşadıqları "uğursuzluqlarının" günahkarını axtarırlar. Deyəsən, tapıblar axı...**

...Artıq bu, inkar edilməməli olan bir faktdır, sən demə, 44 günlük müharibədə, bu müharibənin uduzulmasında ən böyük günahkar Nikol Paşinyanmış. Məhz onun səriştəsizliyi, naşılığı ermənilərin bu müharibədə uduzmasına gətirib çıxarıb. Bunda əlavə, guya nə Ermənistan dövləti, nə erməni cəmiyyəti, nə də erməni ordusu müharibəyə hazır deyilmiş. Demə, həmən ərəfədə bütün ermənilər, demək olar ki, hər gün hakim komanda tərəfindən başladılan siyasi şoularla məşğul imiş. Yəni həmin ərəfədə Ermənistanda ictimai düşüncə arxa plana keçibmiş. 2016 -cı ildə hərbi əməliyyatlardan sonra burunları əzilsə də, amma özlərini o yerə oymayıb, Artsrun Ovannisyanın dili ilə ermənilərin silahlanma planının dəyişdirilməsi barədə dedikləri də artıq arxa planda qalıb unudulmaqdaymış.

Amma... bu gün ermənilər daha bir yenilik kəşf ediblər. Demə, 2018 -ci ildə Paşinyanın hakimiyyətə gəlməsi Ermənistanda nəinki dövlətçiliyinin qarşısında duran problemləri həll etməmiş, əksinə, bir sıra problemləri daha da pisləşdirib və bu problemlərə yenilərini də əlavə edibmiş.

...Bunlar hamısı bir yana ...sən demə, Azərbaycan da yaxşı eləməyib, ermənilərə elə bir məqmda hücum edib ki, bu hücumun nə vaxtı, nə də məqamı, erməniləri heç cür qane etmirmiş.

Bundan əlavə, həmin ərəfədə hamı öz dərdiylə məşğulmuş, yəni dünya pandemiya ilə mübarizə aparırmış. Ona görə də, bəzi "ermənisevər" dünya liderlərinin Nikolun telefon zənglərinə cavab verməmələri ... haradasa, başa düşüləndir. Ermənilərə görə, əslində bu da günah və ya günahkar kimi, Nikolun adına yazılmalıdır.

Bundan əlavə, həmin ərəfədə Ermənistandakı daxili siyasi çəkişmələr də diqqətdən qaçmamalıdır. Ən əsası, Paşinyanın dilini "dinc saxlamayıb" təxribatçı bəyanatlar verməsi də öz işini gördü. Bu da keyfiyyətli müasir silahlarla təchiz edilən Azərbaycan Ordusunun ermənilər üzərində üstünlüyünü ortaya qoydu.

Əslində, indi ermənilər bu gün öz məğlubiyyətlərini ört-basdır etmək üçün nə qədər desən bəhanə gətirə bilərlər, amma...

Hazırda onların Nikola ünvanladığı iradlardan biri də, döyüşlərin ilk günündən bunun qarşısını, yəni dayandıra bilməməsi ilə əlaqədardır. Ermənilərə görə, Nikolun iki dəfə, 7 və 19 oktyabrda hərbi əməliyyatları dayandırmaq imkanı olub. Lakin o, bu imkanlardan yararlanmayıb, bilirsiniz niyə, sonrdan özünün də dediyinə görə, o, erməni tarixinə "xain damğası" ilə düşmək istəməyib(?).

Bəli, Nikol indi ermənilərin onu "yararsızın biri" kimi çağırmalarını, insan həyatını xilas edib "xain" damğası almaqdan üstün tutub.



Əslində, etiraf edilməlidir ki, əksər erməni səlahiyyəliləri kimi Nikol da elə müharibənin ilk günündən ermənilərin məhvə məhkum olacağını yaxşı başa düşürdü. Deyim ki, bunu "artsaxın saxta prezidenti" Arayik Harutyunyan ondan da yaxşı qanırdı. Amma həmişə kənardan "onları qoruyacaq qüvvələrin" olacağına ümid edən ermənilərin budəfəki ümidlərinin boşa çıxması ermənilərin "axırını" gətirdi.

Qeyd edk ki, bu gün əksər ermənilərə yer edən bilirsiniz nədir: məğlub müharibədən bir il sonra Paşinyanın hələ də hakimiyyətdə oturması. Sən demə, beynəlxalq ictimaiyyətin işi-gücü qurtarıb deyə, ancaq Ermənistanın belə bir liderindən razılıq etməklə "məğlubmuş": "...çünki ona diktə edilən şeyləri itaətkarlıqla yerinə yetirəcək bir "lidermiş".

...Təbii ki, vaxtilə sabun köpüyü kimi şişirdilərək "məğlubedilməz" ayəməsi verilmiş bir ordunun elə ilk döyüşlərdə fərarilik edib qaçmasını, ermənilər öz siyasi uğursuzluqlarını kiminsə adına yazmalıdırlar axı...

***Ağasəf Babayev***

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

29 sentyabr

SƏS

QARABAĞ AZƏRBAYCANDIR!

# 44 günlük Vətən Müharibəsi qürur tariximizdir!

## *Qəbələdə 27 sentyabr - Anım Günü ilə bağlı tədbir keçirilib*

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində 27 sentyabr Anım Günü ilə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə Mərkəzin direktoru Qalib Nəbiyev açaraq, Ermənistan Respublikasının ölkəmizə qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamasından və torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər, zabitlərimiz, qazilərimiz və şəhid ailələrinə göstərilən diqqət, qayğıdan danışıb. Qəbələ Rayon İcra Hakimiyyətinin, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin təşəbbüsü, "Əsgərə xatirə" layihəsinin dəstəyi və Müdafiə Nazirliyinin birgə əməkdaşlığı ilə şəhid və qazi ailələrimizə göstərilən dəstək haqqında iştirakçılara məlumatlar verilib. Tədbirdə iştirak edən layihə rəhbərinə, fəxri sahibkar üzvləri Əliş Hüseynov, Müşfiq Hüseynova minnətdarlıq bildirərək Vətənpərvərlik istiqamətində görülən bütün işlərdə komandaya uğurlar arzu edib.





Tədbirdə "Əsgərə xatirə" layihəsinə Müdafiə Nazirliyinin N saylı hərbi hissəsindən ezam olunmuş, Qarabağ ordeni ilə təltif edilmiş mayor İdris Qənbərov Birinci Qarabağ müharibəsi, Aprel döyüşləri və İkinci Qarabağ müharibəsində hərbiçilərimizin göstərdiyi igidliklərindən danışaraq qeyd edib ki, onlar torpaqlarımızın işğaldan azad olunması, şəhidlərimizin qanının yerdə qalmaması üçün qəhrəmancasına döyüşərək düşmənə ağır və sarsıdıcı məğlubiyyətlər yaşadıblar.



Tədbirdə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin xalqımızın, ordumuzun birliyi nəticəsində 30 il işğal altında olan torpaqlarımızı azad etdiyi diqqətə çatdırıldı.

Eyni zamanda, tədbirdə şəhid Xeyribəy Səfərçinovun atası Cəlil Səfərçinov da çıxış edərək, şəhid valideynlərinə göstərilən qayğıdan razılığını bildirdi. Zəfər tarixinin yazılmasında payı olan hər bir şəxsə minnətdarlığını ifadə etdi. Şəhid analarının daima qayğıya ehtiyacı olduğunu diqqətə çatdırmaq üçün yazmış olduğu şeiri tədbir iştirakçıları ilə bölüşdü. Tədbirin sonunda şəhid ailələrinə sovqatlar paylanıldı.

## Sabirabadda Anım Günü qeyd edildi



YAP Sabirabad rayon təşkilatının rəhbərliyi və fəalları - 27 sentyabr Anım Günü ilə əlaqədar rayon mərkəzindəki Şəhidlər xiyabanını ziyarət ediblər. SİA-nın verdiyi məlumata görə, ziyarətçilər I və II Vətən müharibəsində canlarını qurban vermiş qəhrəman şəhidlərimizin xatirəsini ehtiramla yad edib, məzarlarının önünə gül dəstələri düzüblər. Bildiriblər ki, qəhrəmanlıqla canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi həmişə əziz tutulacaq və onlar xalqın qəlbində əbədi yaşayacaqlar.





## Şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib



Biləsuvar rayonunda 44 günlük Vətən Müharibəsinin birinci ildönümü münasibətilə Anım Günü qeyd edilib. SİA-nın məlumatına görə, Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının əməkdaşları və fəalları Şəhidlər Xiyabanını ziyarət edərək, torpaqlarımızın azadlığı uğrunda canından keçmiş həm Birinci Qarabağ müharibəsi, həm də İkinci Qarabağ müharibəsi şəhidlərinin əziz xatirələrini yad edərək abidələri önünə tər çiçəklər qoyublar.

Sonra qəhrəman şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib. Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Milli Məclisin vitse-spikeri Fəzail İbrahimli, Milli Məclisin deputatı Bəhruz Məhərrəmov, Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Aqşin Bağırov, və ictimaiyyətin nümayəndələri iştirak edərək şəhər ərazisində ayrılmış yerdə 500 ədəd müxtəlif növ ağac əkib, suvarıblar.

Daha sonra rayon təşkilatının əməkdaşları Vətən müharibəsi şəhidi Abıyev İlkin İslam oğlunun şəhadətinin ildönümü ilə bağlı məzarını ziyarət ediblər.

## Qusarda Anım Günü münasibətilə tədbir keçirilib







Anım Günü münasibətilə Qusar rayonunda bir sıra tədbirlər keçirilib. SİA-nın məlumatına görə, Qusar Rayon İcra Hakimiyyətinin əməkdaşlarının, YAP rayon təşkilatı fəallarının, şəhid ailələrinin və rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə şəhidlərin məzarları ziyarət olunub və ruhlarına dualar oxunub.

Eyni zamanda, Anım Günü tədbirinin iştirakçıları ağacəkmə aksiyasına qoşulublar. Qeyd edək ki, saat 12.00-da şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbir iştirakçıları bildiriblər ki, Vətən torpaqlarının işğaldan azad olması naminə canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi bundan sonra da xalqımızın qəlbində daim yaşayacaqdır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600